RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 138 (9017) ŞƏNBƏ, 2 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Azərbaycanın növbəti tarixi töhfəsi

**Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin təsis olunması təşkilata üzv dövlətlər tərəfindən təqdir olunur**

## Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransı öz işini başa çatdırıb

**Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı iyulun 1-də öz işini başa çatdırıb. Konfransın ikinci günü parlament rəhbərlərinin və nümayəndə heyətinin üzvlərinin çıxışları dinlənilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova gündəlik barədə məlumat verdikdən sonra sözü nümayəndə heyətlərinin rəhbərlərinə verib.

Malayziya Nümayəndələr Palatasının sədr müavini Mohd Raşid Hasnon dünyada qlobal çağırışların olduğu vaxtda Bakı konfransının əhəmiyyətini yüksək qiymətləndirib. Azərbaycan Prezidenti İlham Əliyevə bu təşəbbüsünə görə minnətdarlığını ifadə edən malayziyalı parlamentari beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayıb. "Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bu kontekstdə üzərimizə məsuliyyət qoyur.

→ 3

**Bakı daha bir beynəlxalq tədbirə evsahibliyi etdi. Heydər Əliyev Mərkəzində keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı Konfransında 40-dan çox ölkənin parlamenti və 9 beynəlxalq parlament təşkilatı təmsil olundu. Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərarası əməkdaşlığa verdiyi əhəmiyyətin əyani göstəricisi olan konfrans vacib müzakirələrlə yadda qaldı.**

### Etimadın göstəricisi

Qoşulmama Hərəkatı (QH) BMT-dən sonra dünyanın ikinci böyük təşkilatıdır. 120 ölkəni birləşdirən QH dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. Azərbaycanın üzv olduğu digər təşkilatlarla müqayisədə QH-də iştirakı nisbətən yenidir. Belə ki, milli maraqlarımızı qətiyyətlə təmin edən xarici siyasət kursu yürüdən respublikamız QH-yə cəmi 11 il əvvəl - 2011-ci ildə tamhüquqlu üzv olmaq barədə qərar verib.

Azərbaycan ilk gündən hərəkatın ruhuna və prinsiplərinə hörmətlə yanaşıb. Bu da ondan irəli gəlir ki, rəsmi Bakı bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir. Ona görə hərəkata üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

2019-cu ildən isə Azərbaycan QH-yə sədrliyi həyata keçirir. Ötən dövr ərzində hərəkatın sədri qismində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm tədbirlər həyata keçirilib. Xüsusən Prezident İlham Əliyevin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olunub və böyük razılıqla qarşılanıb. Bu tədbirlər pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyin, o cümlədən COVID-19 əleyhinə peyvəndlərə əlçatanlığın təmin edilməsində böyük rol oynayıb. Ötən ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Ümumiyyətlə, Azərbaycanın QH-yə sədrliyi səmərəli olmaqla, hərəkatın fəaliyyətinin daha da canlandırılmasına, onun qlobal proseslərdə iştirakına böyük töhfələr verib. Respublikamızın hərəkata sədrliyinin bir il uzadılması da bundan irəli gəlir. Bu, qlobal miqyasda ölkəmizə göstərilən etimadın növbəti nümunəsidir. Respublikamız isə bundan sonra QH-nin fəaliyyətini qlobal problemlərin həlli uğrunda qətiyyətlə və layiqincə səfərbər edəcək.

→ 5

## "Science Channel" telekanalında yayımlanan "Tərk edilmişlərin sirri" serialının növbəti buraxılışı Ağdam şəhərinə həsr olunub

Dünyanın nüfuzlu "Science Channel" telekanalında yayımlanan "Tərk edilmişlərin sirri" (Mysteries of the abandoned) elmi serialının növbəti buraxılışı Azərbaycanın Ağdam şəhərinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, reportajda son otuz ildə Ermənistan-Azərbaycan münaqişəsinin on minlərlə insanın həyatına son qoyduğu, müharibə zamanı və ondan sonra işğal dövründə şəhər və kəndlərin məhv edildiyi əksini tapır. Qeyd edilir ki, vaxtilə regionun mədəniyyət mərkəzi olan və bir vaxtlar minlərlə insanın yaşadığı Ağdam işğal dövründə yerləyeksan olunub və heç kimin yaşamadığı, tamamilə dağıdılmış "ruhlar şəhəri"nə çevrilib.

Reportajda viran qoyulmuş Ağdamdan görüntülər, o cümlədən işğal dövründə şəhərdə yeganə salamat qalmış bina - Ağdam Cümə məscidi, eləcə də Dram teatrının, Çörək muzeyinin və digər ictimai binaların dağıntıları nümayiş olunur. Həmçinin bu şəhər barədə tarixçi Dominik Selvudun fikirləri təqdim edilir: "İnanmaq çətindir ki, Ağdam bir vaxtlar normal həyat yaşayan insanların çiçəklənən, səs-küylü şəhəri olub. Yaşıl ağaclar arasında yüzlərlə bina görünür. Lakin onlar məhv edilib və həmin binaların yalnız qalıqları qalır. Məscid bu yerin irsini təqdim edir".

→ 7



# Xəzərin dayazlaşması ciddi ekoloji fəlakətdir

→ 6

## Son 20 ilin rekord daşqınları baş verir

Ölkədəki leysan yağışları, təbii fəlakətlər indi problem yaratsa da, faydası da var

Bu il ölkədə yağıntıların bol olması çaylarda sululuğu da artırıb. Çaylarda suyun səviyyəsinin qalxması isə selə, daşqın hadisələrinə səbəb olur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) məlumatına görə, bu ilin iyun ayında son 20 ilin rekord daşqınları müşahidə olunub.



→ 7

## Bakıda ABŞ-ın Müstəqillik Günü qeyd edilib

İyulun 1-də ABŞ-ın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 246-cı ildönümü ilə əlaqədar tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger ölkəsinin müstəqillik tarixindən danışıb. O xatırladıb ki, 1776-cı il iyulun 4-də ABŞ-ın müstəqillik bəyannaməsinin imzalandığı gündür.

→ 6

## Avropa "hibridləşir"

2035-ci ildən sonra benzin və dizel yanacaqlı avtomobillərin satışı qadağan edilə bilər



**Avropa Parlamenti 2035-ci ilə qədər Avropada yeni benzin və dizel yanacaqlı mühərrikli avtomobillərin satışının qadağan edilməsi təklifini dəstəkləyib.**

Qəbul edilən qətnamə hələ məsləhət xarakteri daşıyır və formal olaraq məcburi deyil. Lakin belə qətnamələr göstərir ki, bir çox Avropa dövlətlərinin hakimiyyət orqanları yaxın onilliklərdə benzin və dizellə işləyən avtomobillərdən imtina etməyi hədəfləyirlər.

→ 8

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilsin:

polis polkovniki Canpolad Alı oğlu Daanova
polis polkovniki Namiq Zirəddin oğlu Həsənova
polis polkovniki Vüqar Hidayət oğlu Ələkbərova
polis polkovniki Sərdar Süleyman oğlu Səfərova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## Gəncə Şəhər Məhkəməsinin sədri, sədrinin müavini və hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini və 97-ci maddəsinin ikinci hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Xəqani Qəhrəman oğlu Tağıyev Sumqayıt Kommersiya Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Gəncə Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin.
2. Tural Şəmsi oğlu Qocayev Gəncə Şəhər Məhkəməsinin hakimi və sədrinin müavini təyin edilsin.
3. Mustafa Əli oğlu Mustafayev Şəmkir Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Şəhər Məhkəməsinin hakimi təyin edilsin.
4. Aşağıdakı hakimlər Gəncə Şəhər Məhkəməsinin hakimləri təyin edilsinlər:

Hüseynov Kənan Zakir oğlu
Hüseynov Zaur Nazim oğlu
İmanov Zaman Şakir oğlu
Şirinov Gündüz Əhməd oğlu
Tağıyev Cavid Tahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsi, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Yusifov Mahmud Şahmurad oğlu - tibb xidməti polkovniki

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Rəşad Vaqif oğlu - polis polkovniki
Aslanov Çingiz Rauf oğlu - polis polkovniki
Həmzəyev Pərviz Mahmud oğlu - polis polkovniki
Qurbanov Elmir Vaqif oğlu - polis polkovniki
Məmmədov Emin Mobil oğlu - polis polkovniki
Nəsirov Zaur Zakir oğlu - polis polkovniki
Sarıyev Bəkir Qəhrəman oğlu - polis polkovniki
Abbasov Zaur Nürəddin oğlu - polis polkovnik-leytenantı
Camalov Vüqar Yahya oğlu - polis polkovnik-leytenantı
Əlizadə Cavidan Gülağa oğlu - polis polkovnik-leytenantı
Kərimov Rəhman Cəbrayıl oğlu - polis polkovnik-leytenantı
Qasımov Ceyhun Həsən oğlu - polis polkovnik-leytenantı
Qasımov Nəvai Becan oğlu - polis polkovnik-leytenantı
Quliyev Elşən Şahlar oğlu - polis polkovnik-leytenantı
Səlimov Murad Rəfayıl oğlu - polis polkovnik-leytenantı
Cəfərov Məhiyəddin Bulud oğlu - polis mayoru
Əliyev Səttar Nizami oğlu - polis kapitanı
Məmmədov Şakir Fərman oğlu - polis baş leytenantı

**"İgidliyə görə" medalı ilə**

Məmmədov Nəsib Sayad oğlu - polis polkovniki
Qaflanov Qurban Oruc oğlu - polis polkovnik-leytenantı
Şıxnəbiyev Rəşad Rəhbər oğlu - polis polkovnik-leytenantı
Nağıyev Kənan İlyas oğlu - polis mayoru
Dadaşov Rəşvin Akif oğlu - polis kapitanı
Mehvalıyev Cəmaləddin Teymur oğlu - polis baş leytenantı
Həbibullayev Rasim Fərman oğlu - polis kiçik leytenantı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## *Prezident İlham ƏLİYEV:* "Cənubi Qafqaz inteqrasiya edilmiş təhlükəsizlik, əməkdaşlıq və ümumi rifah məkanı olmalıdır"




**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 119-cu kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabındakı materiallar 2022-ci ilin aprel-may aylarını əhatə edir.

O dövrün mühüm hadisələrindən biri ADA Universitetində "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransın keçirilməsi olub. Həmin konfransda İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornelin sualını cavablandıran Prezident İlham Əliyev deyib: "Biz gələcəyə baxmalıyıq və Cənubi Qafqaz inteqrasiya edilmiş təhlükəsizlik və əməkdaşlıq, eləcə də ümumi rifah məkanı olmalıdır. Bu halda, Ermənistanın siyasəti heç bir məntiqə sığmır. Ola bilsin, onlara bir az vaxt lazımdır. Bəlkə də onlar öz fikirləri əsasında ola biləcək riskləri qiymətləndirməlidirlər. Lakin hesab edirəm ki, bu, qaçılmazdır. Biz hazırıq. Gürcü həmkarlarımız da hazırdır. Fikrimcə, bu, birinci addım ola bilərdi".

Aprelin 28-də Şuşada işinə başlamış və Bakıda davam etmiş beynəlxalq konfransda dövlətimizin başçısının çıxışının mətni, suallara cavabları, həmçinin konfrans barədə materiallar yeni kitaba daxil edilib.

Kitabda Azərbaycan Prezidentinin işğaldan azad edilmiş bölgələrə səfərləri də əksini tapıb. Mayın 10-da Prezident İlham Əliyev Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısı, həmin gün Şuşaya da gedib, məşhur tarzən, bəstəkar və sənətkar Sadıqcanın vaxtilə yaşadığı evdə, Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri, "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazi, Şuşa Real məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanış olub, "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılış mərasimində çıxış edib. Bu səfərlərdən, habelə mayın 12-də Prezidentin Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışında iştirakından bəhs edən materiallar çoxcildliyin 119-cu kitabında toplanıb.

Azərbaycan Prezidentinin Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfəri, o cümlədən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanışlığı, "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirakı, Zəngilanda "ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışı zamanı kənd sakinləri ilə görüşü haqqında informasiyalarla, həmin görüşdəki çıxışının mətni ilə də yeni kitabda tanış olmaq mümkündür.

Nəşrə Azərbaycan Prezidentinin Türkiyəyə işgüzar səfəri çərçivəsində Rize-Artvin Hava Limanının açılışında iştirakına dair xəbərlər, iki qardaş ölkənin liderlərinin açılış mərasimində çıxışlarının mətni daxil edilib. Kitabda dövlətimizin başçısının Belçikaya işgüzar səfəri haqqında informasiyalar da verilib.

Kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü barədə məlumat, liderlərin mətbuata bəyanatlarının, Azərbaycan-Litva biznes-forumunda çıxışlarının mətnləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 119-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**
Əsgərova-Məmmədova Leyla Səyavuş qızı
Məmmədzadə Səbinə Adil qızı

**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Hüseynov Nahid Nəsir oğlu

**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**
Rzayeva Aynur Tapdıq qızı

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**
Almazova Aysev Mehman qızı
Məlikov Tural Rauf oğlu

**Şəki İnzibati Məhkəməsi**
Hacızadə Fəxri Hümmət oğlu

**Şirvan İnzibati Məhkəməsi**
Hüseynova Amilya Aqil qızı
Nəcəfov Hilal Nəcəfalı oğlu

**kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**
Əhmədova Nərmin Məzahir qızı

**Gəncə Kommersiya Məhkəməsi**
Quliyeva Gülnaz Elxan qızı

**Sumqayıt Kommersiya Məhkəməsi**
Alıyeva Həlimə Rəşid qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Sadıqova Aynurə Vahid qızı

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Hacıyeva Sahibə Cavid qızı
Hacıyeva Sülhanə Sərdar qızı

**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Dadaşova Şəfa Əliövsət qızı

**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Əlisoy Xalidə Kəramət qızı
Əfəndizadə Mehriban Xalid qızı
Tağıyeva Nərgiz Nazim qızı

**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Qədirli Nigar Aftandil qızı

**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
İmanova Nigar Arzu qızı
Qədirova Şəbnur Şakir qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağcabədi Rayon Məhkəməsi**
Nuriyev Rəşad Mövsüm oğlu

**Bərdə Rayon Məhkəməsi**
Babaşov Fuad Bəhruz oğlu

**Gəncə Şəhər Məhkəməsi**
Cəfərli Orxan Nazim oğlu
Əliyev Asif Əmrah oğlu
Quliyev Camal Yusifəli oğlu
Səfərli Xədicə Əlicabbar qızı

**Goranboy Rayon Məhkəməsi**
Mustafayev Taleh Məhəmmədəli oğlu

**Xaçmaz Rayon Məhkəməsi**
Qasımova Vüsalə Yadigar qızı

**Qusar Rayon Məhkəməsi**
Cəlilov Əli İsa oğlu

**Lənkəran Rayon Məhkəməsi**
Ağabəyov Nicat Rauf oğlu
Aslanov Murad Şamxal oğlu

**Mingəçevir Şəhər Məhkəməsi**
Cəbrayılzadə Elza Vaqif qızı

**Sabirabad Rayon Məhkəməsi**
Allahverdiyev Səlim Məhərrəm oğlu

**Şəmkir Rayon Məhkəməsi**
Məmmədova Şəfəq Ənvər qızı

**Şirvan Şəhər Məhkəməsi**
Məmmədova Səidə Hüseynağa qızı

**Tovuz Rayon Məhkəməsi**
Əliyev Fərid Nadir oğlu

**Yevlax Rayon Məhkəməsi**
Əliyev Kamil Çingiz oğlu.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Rasim Sarı oğlu Kazımov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarına uyğun olaraq **qərara alıram:**

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 20; 2014, № 4, maddə 366; 2017, № 8, maddə 1529) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və öz əsasnamələrinə uyğun olaraq, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri aşağıdakılardır:

1.1. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti (kəşfiyyat fəaliyyətinin subyekti);

1.2. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (əks-kəşfiyyat fəaliyyətinin subyekti);

1.3. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti (mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi, habelə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əks-kəşfiyyat təminatının həyata keçirilməsi (texniki sahədə həmin Xidmətlə birlikdə) sahəsində əks-kəşfiyyat fəaliyyətinin subyekti);

1.4. müvafiq dövlət orqanlarının aşağıdakı kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən strukturları:

1.4.1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müdafiə sahəsində hərbi kəşfiyyat fəaliyyətini;

1.4.2. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin dövlət sərhədinin mühafizəsi ilə əlaqədar kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini;

1.4.3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin texniki sahədə əks-kəşfiyyat fəaliyyətini;

1.4.4. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əks-kəşfiyyat fəaliyyətini.".

2. 2.3-cü bənddən "7.2.9-cu," sözləri çıxarılsın və həmin bənddə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, texniki kəşfiyyata qarşı əks-təsir fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

3. 2.4-cü bənddə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

4. 2.6-cı bənddə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tərkibində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı öz struktur bölmələrində və strukturuna daxil olan qurumlarda, habelə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı öz struktur bölmələrində Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

5. 2.7-ci bənddə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı energetika, nəqliyyat və rabitə obyektlərində Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyin təmin edilməsi və Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əks-kəşfiyyat təminatının həyata keçirilməsi ilə bağlı nəqliyyat və rabitə obyektlərində Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı energetika obyektlərində Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

6. 2.8-ci bənddə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

7. Aşağıdakı məzmunda 2.8-2-ci bənd əlavə edilsin:

"2.8-2. həmin Qanunun 7.2.9-cu maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, fəaliyyət istiqamətlərinə uyğun olaraq, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əks-kəşfiyyat təminatının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi həyata keçirirlər;".

8. 2.10-cu, 2.11-ci, 2.13-cü və 3.2-ci bəndlərdə "dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "mühafizə olunan şəxslərin və qorunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əks-kəşfiyyat təminatının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, texniki kəşfiyyata qarşı əks-təsir fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

9. 3-cü hissədə "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2022-ci il*

# Azərbaycanla İordaniya arasında qarşılıqlı investisiya imkanları və biznes əlaqələrinin təşviqi məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 1-də İordaniya Haşimilər Krallığı Senatının Sədri Faysal Al-Fayez ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda keçirilən konfransının əhəmiyyəti vurğulanıb.

Azərbaycan-İordaniya münasibətlərinin müxtəlif istiqamətlərdə inkişaf etdiyi məmnunluqla qeyd edilib. İki ölkənin beynəlxalq təşkilatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırılıb.

Görüşdə Azərbaycan ilə İordaniya arasında ticari-iqtisadi münasibətlərin genişləndirilməsi, qarşılıqlı investisiya imkanları və biznes əlaqələrinin təşviqi, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Münasibətlərin inkişafında parlamentlərin xüsusi rolu var



İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova İordaniya Haşimilər Krallığının Nümayəndələr Palatasının Sədri Əbdülkərim Feysəl Deyfullahəd-Duğmi və Senatın Sədri Faysal Al-Fayez ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova qonaqları salamlayaraq Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etdiklərinə görə onlara təşəkkürünü bildirib.

Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında İordaniyanın iştirakının və konfrans çərçivəsində aparılan müzakirələrin əhəmiyyətini qeyd edib. Milli Məclisin Sədri Azərbaycan Prezidenti İlham Əliyevin Konfransın açılışında söylədiyi nitqin mühüm əhəmiyyətindən danışıb. Qeyd edib ki, Prezidentimizin dünyada baş verən proseslərdə Qoşulmama Hərəkatının rolu, bir çox aktual məsələlər barədə səsləndirdiyi fikirlər təşkilatın fəaliyyət istiqamətlərinin müəyyənləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sahibə Qafarova qonaqlara Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər, hazırda işğaldan azad olunan ərazilərimizdə aparılan bərpa və quruculuq işləri barədə məlumat verib. Söhbət zamanı spiker Azərbaycanın sülhün və sabitliyin tərəfdarı olduğunu vurğulayıb və tezliklə Ermənistanla sülh müqaviləsi imzalanacağına inamını ifadə edib.

Milli Məclisin spikeri bildirib ki, dövlətlərimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin xüsusi rolu var. Təqdirəlayiq haldır ki, hər iki ölkənin qanunvericilik orqanlarında parlamentlərarası əlaqələr üzrə dostluq qrupları fəaliyyət göstərir.

İordaniya Haşimilər Krallığının Nümayəndələr Palatasının Sədri Əbdülkərim Feysəl Deyfullahəd-Duğmi və Senatın Sədri Faysal Al-Fayez səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürlərini ifadə ediblər. Qonaqlar Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştiraklarından məmnunluqlarını bildiriblər. Konfransın yüksək səviyyədə təşkil olunduğunu söyləyiblər.

Spikerlər Azərbaycanın Qoşulmama Hərəkatında əhəmiyyətli rolunu vurğulayıblar. Qonaqlar ölkəmizin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılması ilə bağlı təşəbbüsünün və Bakı Konfransı çərçivəsində müzakirə olunan məsələlərin vacibliyindən danışıblar.

Spikerlər İordaniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu qeyd ediblər, dövlətlərarası əlaqələrin möhkəmlənməsində İordaniya Kralı ilə Azərbaycan Prezidenti arasındakı dostluq münasibətlərinin rolunu vurğulayıblar.

Söhbətdə tərəflər regional münaqişələrin törətdikləri fəsadların aradan qaldırılması, qaçqın və miqrasiya problemlərinin həlli yolları və digər qarşılıqlı maraq doğuran məsələlər barədə fikirlərini bölüşüblər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransı öz işini başa çatdırıb

*Əvvəli 1-ci səh.*





BMT-nin davamlı inkişaf hədəflərinə çatmaq üçün Qoşulmama Hərəkatına üzv ölkələrin prinsiplərini əsas tutmalı və sadiqlik nümayiş etdirməliyik. Qarşılıqlı əlaqələr və əməkdaşlıq baxımından Parlament Şəbəkəsinin rolu çox mühümdür. İnsan hüquqlarının müdafiəsinin daha yaxşı təmin olunması üçün Parlament Şəbəkəsinin fəaliyyətini dəstəkləyirik", - deyə Mohd Raşid Hasnon qeyd edib.

Azərbaycan hökumətinə və parlamentinə bu tədbiri təşkil etdiyinə görə öz təşəkkürünü bildirən İran parlamenti sədrinin müavini Abdolreza Mesri parlament şəbəkəsini gücləndirmək üçün yaxşı imkanlar olduğunu diqqətə çatdırıb. Parlamentlər arasında inklüziv qərarvermə üzrə əməkdaşlığın vacibliyini qeyd edən iranlı parlamentari vurğulayıb ki, dünyanın diqqətini müstəqil dövlətlərin güclü səsinə cəlb etmək lazımdır. O, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin çoxtərəflilik və mövcud problemlərlə birgə mübarizə aparmaq üçün imkanlar yaratdığını bildirib.

Qoşulmama Hərəkatının yarandığı gündən etibarən beynəlxalq arenada sülhün və təhlükəsizliyin qorunmasında mühüm rol oynadığını qeyd edən Liviya parlament sədrinin birinci müavini Fouzi Salim bildirib ki, mübarizə üçün birgə strategiya və dövlətlər arasında bərabərlik prinsipini əsas tutan Qoşulmama Hərəkatı insan hüquqlarının pozulmasının qarşısını ala biləcək və dövlətlərin daxili işlərinə müdaxilə etməmək prinsipinə əsaslanan bir təsisatdır. "Vahid parlament birliyinin yaradılması zamanın tələbidir. Üzv ölkələrin parlamentariləri kimi səylərimizi gücləndirməliyik ki, bu şəbəkənin rolu artsın", - deyə Liviya parlament sədrinin birinci müavini vurğulayıb.

Bəhreyn parlamentinin üzvü Camal Faxro qlobal çağırışlara cavab vermək üçün parlament həmrəyliyinin mühüm şərt olduğunu vurğulayıb. O deyib: "Beynəlxalq sistemdə sülh və təhlükəsizliyin təmin edilməsi dövrün, zamanın ən vacib məsələsidir. Bakı konfransından müsbət nəticələr gözləyirik. Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan xalqına və Milli Məclisə bu tədbiri təşkil etdiyinə görə təşəkkür edirik. Bakı konfransının qarşıya qoyduğu hədəflərə çatacağına inanırıq".

Hazırda dünyada vəziyyətin çox gərgin olduğunu bildirən IPC-nin Baş katibi Sitarə Ayaz bu məsələdə hamının üzərinə məsuliyyət düşdüyünü qeyd edib. "Belə çətin və gərgin dövrdə Bakı konfransının təşkili üçün Azərbaycanın səylərini dəstəkləyirəm. İnanırıq ki, Parlament Şəbəkəsi müxtəlif parlamentlər arasında sıx əlaqələrin yaradılmasını təmin edəcək. İqlim dəyişkənliyi və təhlükəsizliklə bağlı problemləri ancaq ədalətli yanaşma və demokratiya yolu ilə həll etmək mümkündür", - deyə Sitarə Ayaz vurğulayıb.

TÜRKPA-nın Baş katibi Süreyya Er vurğulayıb ki, Qoşulmama Hərəkatına Azərbaycanın sədrlik müddətinin uzadılması Azərbaycan Prezidenti İlham Əliyevə və Azərbaycana inamın növbəti təzahürüdür. Bildirilib ki, dünyada sülhə və əməkdaşlığa nail olunmasında parlamentlərarası əlaqələr və parlament təşkilatları mühüm rol oynayırlar. TÜRKPA digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının baş katibi Orduxan Qəhrəmanzadə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin yaradılmasının təsisatın fəaliyyətində yeni bir səhifə açacağına əminliyini ifadə edib, birgə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Malavi parlamentinin sədrinin birinci müavini Madalitso Kazombo, Kuba Senatının baş vitse-prezidenti Ana Maria Mari Machado, İraq İslam Şurası Məclisinin sədr müavini Şahhavan Abdullah Əhməd Talabani, Venesuela parlamentinin sədr müavini Vanesa Yuneth Montero Lopez, Yəmən Nümayəndələr Palatasının sədr müavini Möhsün Əli Bəsora, Belarus parlamentinin üzvü Andrey Savinyx, Qətər Şura Məclisinin sədr müavini Hamda Alsulaiti, Banqladeş parlamentinin üzvü Əbdül Məcid Xan və digərləri dünyada mövcud problemlərdən bəhs edərək, sülh, təhlükəsizlik, iqlim dəyişkənliyi, ərzaq qıtlığı və digər problemlərin həlli üçün birgə əməkdaşlığın vacibliyini vurğulayıblar.

Çıxışlar başa çatdıqdan sonra Milli Məclisin Sədri Sahibə Qafarova bağlanış nitqi ilə çıxış edib.

Milli Məclisin Sədri sona çatan Bakı konfransının çox əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb. O, qeyd edib ki, konfrans çərçivəsində vacib məsələlər müzakirə olunub, qərarlar qəbul edilib.

"Parlament Şəbəkəsinin sədrini və sədr müavinlərini seçdik, loqosunu, bayrağını təsdiqlədik. Məni Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Sədri seçdiyiniz üçün təşəkkür edirəm. Əminəm ki, Bakı Bəyannaməsində əksini tapmış məsələlər uğurla icra olunacaq. Parlament Şəbəkəsinin gələcək inkişafı bizim yeni bir mərhələyə keçməyimizə kömək edəcək, əməkdaşlığımız daha da genişləndiriləcək", - deyə Sahibə Qafarova vurğulayıb.

Qeyd edək ki, iki gün davam edən konfrans çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri məruzə ilə çıxış edərək dünyada mövcud problemlərə öz münasibətlərini bildiriblər və bu problemlərə qarşı birgə mübarizə aparmaq üçün Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin rolunu qeyd ediblər.

Həmçinin konfrans çərçivəsində ikitərəfli görüşlər keçirilib.

Tədbir iştirakçıları konfransdan sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə, o cümlədən mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər edəcək, burada aparılan quruculuq və abadlıq işləri ilə tanış olacaqlar.

Qeyd edək ki, Bakı konfransında dünyanın 40-dan çox ölkəsinin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatının təmsilçiləri iştirak ediblər. Nümayəndə heyətinin tərkibində 15 ölkənin parlament sədri yer alıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Nepal Nümayəndələr Palatasının Sədri ilə görüşüb

İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Nepal Nümayəndələr Palatasının Sədri Agni Prasad Sapkota ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Nepal Nümayəndələr Palatasının Sədrini Azərbaycanda salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova diqqətə çatdırıb ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında Azərbaycan Prezidenti İlham Əliyevin dünyada baş verən proseslərdə Qoşulmama Hərəkatının rolu və bir çox aktual məsələlər barədə səsləndirdiyi fikirlər təşkilatın fəaliyyət istiqamətlərinin müəyyənləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qarşılıqlı əlaqələrin inkişafında parlamentlərin özünəməxsus rolundan danışan Milli Məclisin Sədri iki ölkə arasında parlamentlərarası əlaqələrin dərinləşdirilməsinin vacibliyini qeyd edib.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə və regionda yaranmış yeni reallıq, hazırda işğaldan azad olunan ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə məlumat verib. Diqqətə çatdırıb ki, qonaqlar Şuşaya səfər zamanı işğaldan azad edilmiş ərazilərdəki dağıntıları və Azərbaycanın apardığı tikinti-quruculuq işlərini öz gözləri ilə görəcəklər. Söhbət zamanı spiker tezliklə Ermənistanla sülh müqaviləsi imzalanacağına inamını bildirib.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Nepal Nümayəndələr Palatasının Sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının və burada müzakirə olunan məsələlərin əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın bu tədbiri yüksək səviyyədə təşkil etməsinə görə minnətdarlığını ifadə edib. Qonaq tədbirdə Prezident İlham Əliyevin iştirakını və çıxışını yüksək qiymətləndirib.

Agni Prasad Sapkota diqqətə çatdırıb ki, Nepal Azərbaycanla bir sıra sahələrdə, o cümlədən parlamentlər arasında əlaqələri genişləndirməkdə maraqlıdır. Ona görə də qarşılıqlı səfərlərin sayının artırılması təcrübə və informasiya mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Görüşdə digər məsələlər də müzakirə olunub.

*R.CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Cibuti Azərbaycanla dost ölkədir



İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Cibuti Respublikası Milli Assambleyasının Sədri Məhəmməd Əli Huməd ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cibuti Parlamentinin Sədrini Azərbaycanda salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova ölkəmizin təşkil etdiyi bu mühüm tədbirdə iştirak etmək üçün onun dəvətini qəbul etdiyinə görə qonağa minnətdarlığını bildirib.

Sahibə Qafarova Cibutinin Azərbaycanın dostu olduğunu qeyd edib və ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın təcavüzkar siyasətini pisləyən mövqeyinə, həmçinin Cibuti Milli Assambleyasının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi ədalətli qətnaməyə görə təşəkkürünü bildirib.

Qarşılıqlı əlaqələrin dərinləşməsində parlamentlərin özünəməxsus rolundan danışan Milli Məclisin Sədri hər iki ölkənin parlamentində parlamentlərarası əlaqələr üzrə işçi qruplarının uğurla fəaliyyət göstərdiyini deyib.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə və regionda yaranmış yeni reallıq barədə də qonağa məlumat verib.

Azərbaycana səfərə dəvətə görə minnətdarlığını bildirən Cibuti Respublikası Milli Assambleyasının Sədri Məhəmməd Əli Huməd Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının əhəmiyyətindən danışıb. O, Azərbaycanın bu qurumun dəyərli bir üzvü olduğunu deyib və tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib. Qonaq tədbirdə Prezident İlham Əliyevin iştirakını və çıxışını yüksək qiymətləndirib.

Məhəmməd Əli Huməd diqqətə çatdırıb ki, Cibuti Respublikası Azərbaycanla bir sıra sahələrdə, o cümlədən parlamentlər arasında əlaqələri genişləndirməkdə maraqlıdır. Ona görə də qarşılıqlı səfərlərin sayının artırılması təcrübə və informasiya mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Söhbət zamanı Cibuti Parlamentinin Sədri iki ölkə arasında parlamentlərarası münasibətlərin inkişaf etdirilməsi perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Çili parlamentlərarası əlaqələri inkişaf edir

İyulun 1-də Milli Məclisdə Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Tomas de Rementeria arasında görüş olub.

Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Badamov qonaqları salamlayaraq, Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad etməsi barədə danışıb. Bildirib ki, hazırda 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad olunmasından sonra həmin ərazilərdə sürətli tikinti-quruculuq və bərpa işləri aparılır. Azərbaycan tezliklə məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtmaları üçün orada müasir infrastrukturun qurulması ilə məşğuldur.

Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Tomas de Rementeria Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək bu səfərin Çili və Azərbaycan arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Söhbət zamanı Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafından da bəhs edilib.

Görüşdə Milli Məclisin deputatları Sevinc Fətəliyeva və Nigar Arpadarai çıxış edərək Çili və Azərbaycan arasındakı dostluq münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşüblər.

Söhbətdə iki ölkə arasında dostluq münasibətlərinin mədəniyyət, iqtisadi, təhsil, siyasət və digər sahələrdə yeni mərhələyə qədəm qoyacağına inam bildirilib. Qeyd olunub ki, əməkdaşlığın gücləndirilməsi müxtəlif platformalarda da qarşılıqlı dəstəyə yol açacaq.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*



# Əlcəzair Milli Xalq Assambleyasının Sədri Azərbaycanın təşəbbüsünü alqışlayıb

İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Əlcəzair Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında müzakirə olunan məsələlərdən danışıb. Spiker Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Madriddə təsis olunmuş Parlament Şəbəkəsinin Bakı Konfransının əhəmiyyətini vurğulayıb. Bildirib ki, konfrans "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr edilib. Müasir dünyada parlament diplomatiyasının rolunun günü-gündən artdığı bir vaxtda bu mövzu çox aktualdır.

Milli Məclisin Sədri deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransındakı çıxışı və Qoşulmama Hərəkatının qlobal səviyyədə gedən proseslərdə rolu barədə dəyərli fikirləri mühüm önəm daşıyır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu cür tədbirlər Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafı baxımından olduqca zəruridir. Söhbət zamanı spiker Azərbaycan və Əlcəzair parlamentləri arasında əlaqələrin inkişafı perspektivləri barədə fikirlərini bölüşüb.

Səmimi sözlərə görə təşəkkürünü bildirən Əlcəzair Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransına dəvətə görə minnətdarlığını ifadə edib. Qonaq Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Konfransındakı çıxışını yüksək qiymətləndirib, toxunduğu məsələlərin əhəmiyyətini qeyd edib. İbrahim Bouğali Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının yüksək səviyyədə təşkilinə görə təşəkkür edib, Azərbaycanın bu təşəbbüsünü bəyəndiklərini bildirib. Qeyd edib ki, Parlament Şəbəkəsinin Bakı Konfransı xalqlarımızın təmsilçiləri olan parlamentlərimizin bir araya gəlməsi və aktual məsələləri müzakirə etməsi baxımından çox vacibdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanla Küveyt arasında əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar var

İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova Küveyt Milli Assambleyasının spikeri Marzuk əl-Qənim ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova qonağı ölkəmizdə salamlamaqdan məmnunluğunu ifadə edib və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda keçirilən Konfransında iştirak etdiyinə görə ona təşəkkürünü bildirib.

Sahibə Qafarova dövlətlərarası münasibətlərin inkişafından söz açaraq, Azərbaycanın Küveytlə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini deyib. Dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin bu əlaqələrin dərinləşməsinə mühüm töhfə verdiyini vurğulayıb. Spiker ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əlaqələrin durmadan inkişaf etməsindən razılıqla danışıb.

Azərbaycan parlamentinin Sədri qanunvericilik orqanları arasında əməkdaşlığın vacibliyindən danışıb. O, hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib.

Görüşdə Milli Məclisin Sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının əhəmiyyətindən söhbət açıb, konfransda müzakirəyə çıxarılan məsələlərin aktuallığını qeyd edib. Azərbaycan Prezidenti İlham Əliyevin konfransın açılış mərasimində çıxışına diqqət çəkən Sahibə Qafarova dövlət başçısının qaldırdığı məsələlərin qlobal əhəmiyyət daşıdığını vurğulayıb.

Küveyt Milli Assambleyasının spikeri Marzuk əl-Qənim qonaqpərvərliyə və səmimi söhbətə görə minnətdarlığını ifadə edib. O, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etdiyinə görə məmnunluğunu bildirib, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüsləri təqdir edib. Hərəkatın Parlament Şəbəkəsinin də fəaliyyətinin uğurlu olacağına inamını bildirən qonaq Bakı konfransının işinə müvəffəqiyyətlər arzulayıb.

Ölkəmizdə bütün sahələrdə müşahidə olunan tərəqqidən söhbət açan spiker Marzuk əl-Qənim Küveytin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu deyib, iki ölkə arasında bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar olduğunu bildirib.

Söhbət zamanı qonaq parlamentlərarası əlaqələrin inkişafı və parlament diplomatiyasının əhəmiyyəti barədə fikirlərini açıqlayıb. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin qanunvericilik sahəsində təcrübə mübadiləsi baxımından önəmli olduğunu qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Burundi Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır



İyulun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova Burundi Respublikası Milli Assambleyasının spikeri Gelase Daniel Ndabirabe ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri qonağı salamlayaraq, Azərbaycanın bütün dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin qurulmasında maraqlı olduğunu bildirib və bu əlaqələrin genişləndirilməsində qarşılıqlı səfərlərin əhəmiyyətindən danışıb.

Spiker dövlətlərarası münasibətlərin möhkəmlənməsində parlamentlərin rolundan bəhs edərək bildirib ki, Milli Məclisdə dünyanın bir çox ölkələrinin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir. O, beynəlxalq parlament qurumlarında Azərbaycan deputatlarının fəal iştirak etdiyini diqqətə çatdırıb, Milli Məclisin fəaliyyəti haqqında qonağa ətraflı məlumat verib.

Söhbət zamanı Sahibə Qafarova Burundi Respublikasının Qoşulmama Hərəkatının işində iştirakını yüksək dəyərləndirib, qurumun Parlament Şəbəkəsinin Bakı Konfransının əhəmiyyətindən söhbət açıb. Milli Məclisin Sədri bu tədbirin Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüs çərçivəsində həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, ötən ilin noyabrında Madriddə Parlament Şəbəkəsinin təsis iclası keçirilib. Spiker konfransda qaldırılan məsələlərin dünya miqyasında vacibliyini vurğulayıb.

Burundi Milli Assambleyasının spikeri Gelase Daniel Ndabirabe səmimi görüşə görə təşəkkürünü ifadə edib. O, ölkəsinin dövlətimizlə hərtərəfli əlaqələrin inkişafında maraqlı olduğunu, Azərbaycan parlamenti ilə əməkdaşlığı dərinləşdirmək niyyətində olduqlarını deyib. Qonaq ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlardan bəhs edərək, bu təcrübənin öyrənilməsinin əhəmiyyətli olduğunu qeyd edib.

Burundi parlamentinin Sədri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransının yüksək səviyyədə təşkil olunmasına görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. O, Azərbaycanın bu təşəbbüsünü bəyəndiklərini bildirib və konfransda müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Y.MUSAYEVA,***
***"Azərbaycan"***

# Liviya nümayəndə heyətinin Azərbaycana səfəri parlamentlərarası əlaqələrə öz töhfəsini verəcək

İyulun 1-də Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Liviya parlamenti sədrinin birinci müavini Fouzi Salimin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan birinci vitse-spiker Azərbaycanın evsahibliyi ilə keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında Liviya nümayəndə heyətinin iştirakını yüksək dəyərləndirib. O, Azərbaycanla Liviyanın beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatında əməkdaşlığına toxunub, Ermənistanın işğalına məruz qalan Azərbaycanın ərazi bütövlüyünü Liviyanın dəstəkləməsinə görə təşəkkürünü ifadə edib. Əli Hüseynli hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının nüfuzunun artdığını vurğulayıb və Azərbaycanın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə sədrliyinin də uğurlu olacağına əminliyini bildirib.

Birinci vitse-spiker Azərbaycanın Liviya ilə münasibətlərin, eyni zamanda parlamentlərarası əlaqələrin inkişafında maraqlı olduğunu bildirib və Milli Məclisdə Liviya ilə bağlı dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, Liviya parlamentinin nümayəndə heyətinin Azərbaycana səfərinin parlamentlərarası əlaqələrə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Liviya parlamenti sədrinin birinci müavini Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransına dəvətə, yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, torpaqlarını işğaldan azad etməsi münasibətilə Azərbaycanı bir daha təbrik etdiyini söyləyib. Fouzi Salim Liviyadakı mövcud vəziyyət, yeni konstitusiyanın qəbulu və parlamentarizmin möhkəmləndirilməsi prosesləri barədə məlumat verib.

Söhbətdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin təsis olunmasının əhəmiyyətindən danışılıb, ölkələrimiz arasında ikitərəfli səviyyədə, o cümlədən parlament səviyyəsində əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İranın İslam Şurası Məclisi sədrinin müavini Milli Məclisdə olub

İyulun 1-də Milli Məclisin Sədr müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İranın İslam Şurası Məclisi sədrinin müavini Abdolreza Mesrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Fəzail İbrahimli bu cür görüşlərin münasibətlərin inkişafına müsbət təsir etdiyini söyləyib. Bildirib ki, İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub.

İki ölkənin dövlət başçıları arasında səmimi dostluq münasibətətlərinin olduğunu deyən Fəzail İbrahimli xalqlarımızın bir-biri ilə mehriban qonşuluq əlaqələrini xüsusi qeyd edib.

Fəzail İbrahimli müstəqillik əldə etdikdən sonra üzləşdiyimiz çətinliklər, torpaqlarımızın Ermənistan tərəfindən işğalı barədə söz açıb. O, həmçinin 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə haqqında danışıb. Azərbaycan dövlətinin bu qələbəyə gətirib çıxaran fəaliyyətinə toxunan Milli Məclisin Sədr müavini Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordunun şücaəti, xalqın birliyi sayəsində öz gücümüzə ərazi bütövlüyümüzün bərpa edildiyini vurğulayıb. Fəzail İbrahimli Azərbaycanı bu haqq işində islam aləminin, o cümlədən İran İslam Respublikasının dəstəkləməsini xüsusi qeyd edib və buna görə təşəkkürünü bildirib.

İranın İslam Şurası Məclisi sədrinin müavini Abdolreza Mesri ölkəsinin Azərbaycanla sıx dostluq əlaqələrindən söz açıb. Bildirib ki, İran Azərbaycanın əldə etdiyi uğurlara səmimi-qəlbdən sevinir.

Qonaq ölkəmizdə keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb. Abdolreza Mesri həmçinin ölkəsinin keçdiyi inkişaf yolundan, əldə etdiyi uğurlardan söhbət açıb. Eyni zamanda bildirib ki, Azərbaycan uzun illər münaqişə şəraitində yaşamasına baxmayaraq, yüksək inkişaf, irəliləyiş əldə edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzular barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin deputatları Eldar İbrahimov, Cavanşir Paşazadə, Fazil Mustafa və digər şəxslər iştirak ediblər.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Əlaqələrin inkişafı müzakirə olunub

İyulun 1-də Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İndoneziya parlamentinin Parlamentlərarası əməkdaşlıq komitəsi sədrinin müavini Mardani Ali Seranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Fəzail İbrahimli onlara Azərbaycanın müstəqillik tarixindən söz açıb. O, Ermənistanın təcavüzü nəticəsində torpaqları işğal olunmuş Azərbaycanın danışıqlar yolu və beynəlxalq hüquq vasitəsilə ilə ərazi bütövlüyünü bərpa etmək üçün 30 ilə yaxın səbir göstərdiyini və nəhayətdə öz gücü ilə düşməni torpaqlarından qovduğunu, ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb. Fəzail İbrahimli beynəlxalq təşkilatların, ölkələrin, o cümlədən İndoneziyanın Azərbaycanın bu haqq işində verdikləri dəstəyi yüksək qiymətləndirib, buna görə təşəkkürünü ifadə edib.

İndoneziya parlamentinin nümayəndə heyətinin rəhbəri Mardani Ali Sera Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizə səfərlərindən məmnun qaldıqlarını bildirib, konfransın yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Mardani Ali Sera Azərbaycanın ərazi bütövlüyünün bərpa etməsi ilə bağlı sevinclərini dilə gətirib və işğaldan azad edilmiş ərazilərin tezliklə öz rifahına qovuşacağına əminliyini bildirib. O, ölkələrimiz arasında əməkdaşlığın, parlamentlər səviyyəsində əlaqələrin inkişafının əhəmiyyətinə toxunub, münasibətlərimizin möhkəmlənməsi üçün qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini söyləyib.

Görüşdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev və işçi qrupunun üzvü deputat Elman Nəsirov iştirak ediblər.

Sonra söhbətdə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi və tərəfləri maraqlandıran digər mövzular barədə fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



# Azərbaycanın növbəti tarixi töhfəsi

## Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin təsis olunması təşkilata üzv dövlətlər tərəfindən təqdir olunur

*Əvvəli 1-ci səh.*

"Azərbaycan həmişə regional mövzular və qlobal məsələlərlə bağlı öz mövqeyini nümayiş etdirirdi və əlbəttə ki, Qoşulmama Hərəkatının Sədri olaraq biz ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına, müxtəlif münaqişələrə qarşı sərgilənən selektiv yanaşmaya və ayrı-seçkiliyə qarşı mübarizə aparmağa davam edəcəyik", - bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında çıxışı zamanı bildirib.

Qeyd edək ki, Prezident İlham Əliyevin QH-nin qlobal səviyyədə gedən proseslərdə rolu barədə fikirləri təşkilatın fəaliyyət istiqamətlərinin müəyyənləşməsi baxımından mühüm əhəmiyyət daşıyır.

### Azərbaycan nümunəsi

Xatırladaq ki, ötən il QH-də Azərbaycan təşəbbüsü əsasında Hərəkatın üzv dövlətlərini təmsil edən gənclərin iştirakı ilə Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi təsis olunub. Azərbaycanın irəli sürdüyü və üzv dövlətlər tərəfindən dəstəklənmiş digər bir təşəbbüs Nyu Yorkda Qoşulmama Hərəkatının Dəstək Ofisinin yaradılmasıdır. Bunlar QH-nin institusional inkişafı üçün atılmış mühüm addımlardır.

Azərbaycanın QH-yə uğurla sədrlik etməsinin başqa bir nümunəsi təşkilatın Parlament Şəbəkəsinin yaradılmasıdır. QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin noyabr ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis olunub.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında çıxışında Azərbaycanın bu təşəbbüsünün dəstəklənməsinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev deyib: "Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığımı bildirirəm. Azərbaycan parlamentinin səkkiz il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq".

QH Parlament Şəbəkəsinin yaradılması Azərbaycanın bu təşkilatın fəaliyyətinə tarixi töhfəsidir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə təsis olunan Parlament Şəbəkəsi təşkilata üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki bir sıra mövcud problemləri yalnız beynəlxalq səylər nəticəsində birgə həll etmək mümkündür. Təbii ki, bu işdə parlamentlər də öz sözünü deməli, qlobal problemlərə qarşı səylərini birləşdirməlidirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# ADA Universitetində "Məzun günü" keçirilib











İyulun 1-də ADA Universitetində "Məzun günü" keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir universitetdə təhsil alan əcnəbi tələbələrin təmsil etdikləri dövlətlərin bayraqlarını səhnəyə gətirməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Qeyd olunub ki, ümumilikdə 2021-2022-ci akademik il üzrə ADA Universitetində 7 bakalavr və 7 magistr ixtisası üzrə 471 tələbə məzun olub. Həmin məzunlardan 305-i bakalavr, 166-sı isə magistr proqramlarını təmsil edir.

Onların arasında bu il Azərbaycandan başqa 10 müxtəlif ölkəni təmsil edən 15 tələbə məzun olur. Həmin ölkələr sırasına ABŞ, Bolqarıstan, Fransa, Gürcüstan, Qazaxıstan, Maldiv adaları, Nigeriya, Rusiya Federasiyası, Sudan, Zimbabve daxildir.

ADA Universiteti tələbələri iş mühitinə hazırlayaraq onların əmək bazarına keçidini təmin edir. Bu səbəbdən də məzunların məşğulluq dərəcəsi 82 faizdir.

Mərasimdə məzunlar adından Aytən Süleymanova və Elnur Məmmədov çıxış edərək ADA-dakı tələbə həyatının yaddaqalan anlarını bölüşüblər.

Tədbir iştirakçıları ABŞ-ın Corc Vaşinqton Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Con Lak tərəfindən məzunlara ünvanlanan videomüraciəti dinləyiblər.

Tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor deyib ki, hər hansı vəzifədə ölkəsini mükəmməl təmsil etmə məsuliyyəti bugünkü məzunların üzərinə düşür. Vətənə xidmətin ən parlaq nümunələrini 44 günlük müharibədə bizim cəsur hərbçilərimiz göstərdi. Fəxrlə deyə bilərəm ki, onların sırasında ADA-nın məzunları da olub. Azad olmuş Qarabağ indi sizdən fədakarlıq gözləyir. Artıq geniş vüsət almış bərpa işlərində sizin bilik və bacarığınız lazım olacaq.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxışında qeyd edib ki, Azərbaycanın təhsil sistemində ADA Universiteti fenomenini mən ilk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yaratdığı şəraitlə bağlayıram. Yarandığı ilk gündən indiyədək ADA Universiteti haqlı olaraq ölkəmizin ən nüfuzlu təhsil ocaqlarından biri sayılır. Universitetin tarixi o qədər böyük olmasa da, əlamətdar hadisələr və parlaq nailiyyətlərilə zəngindir. Ötən illərdə universitet Azərbaycanın və xarici ölkələrin intellektual və təhsil ehtiyatlarını birləşdirərək, eyni zamanda möhkəm maddi-texniki və metodik-tədris bazası formalaşdıraraq, mütəxəssis hazırlığının aparıcı mərkəzlərindən birinə çevrilib.

Təhsil naziri Emin Əmrullayev, BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun dekanları Vasili Tkaçev və İqor Turuyev də məzunların sevincini bölüşüblər.

# *"Anadolu" Agentliyi:* Azərbaycan Prezidenti BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını dəstəklədiklərini bildirdi




Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, "Anadolu" Agentliyi başda olmaqla, qardaş ölkə mediası Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfərini, eləcə də Bakıda keçirilən sözügedən konfransda iştirakını və dərin məzmunlu nitqlərini geniş işıqlandırıb.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransına dair müxtəlif xəbərlər yayan "Anadolu" Agentliyinin təqdim etdiyi "Əliyev, BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını dəstəklədiklərini söylədi" sərlövhəli materialda diqqətə çatdırıb ki, BMT və ATƏT-in fəaliyyətini tənqid edən Azərbaycan dövlət başçısı deyib: "...Çünki bu, təkcə beynəlxalq hüququn təməl prinsiplərinin tam pozulması deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud pozulması və onlara məhəl qoyulmaması halı idi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Əgər cəsur azərbaycanlı hərbçilər torpaqlarımızı azad etməsə idi, həmin qətnamələr yəqin ki, daha 28 il ərzində kağız üzərində qalacaqdı.

Bu, BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirir. Çünki qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var. Biz islahatların tərəfdarıyıq və hesab edirəm ki, bu, Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır".

Aşqabadda iyunun 29-da keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı barədə türkdilli ictimaiyyəti geniş məlumatlandıran "Anadolu" Agentliyi dövlətimizin başçısının nitqindən mühüm məqamları "Azərbaycan Prezidenti Əliyev: Zəngəzur dəhlizi artıq reallığa çevrilir" sərlövhəli informasiya şəklində təqdim edib.

Agentlik həmçinin Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun Azərbaycana səfəri çərçivəsində dövlətimizin başçısı tərəfindən səmimi qəbul edilməsinə dair məlumat da yayıb.

# Prezident İlham Əliyevin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransındakı çıxışı Moldova mətbuatında geniş işıqlandırılıb

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı Konfransı Moldova mətbuatında geniş işıqlandırılıb.




Moldovanın "Tribuna", "TV8" və digər xəbər portallarında AZƏRTAC-a istinadla konfransın rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışındakı fikirlər yer alıb. Məqalələrdə dövlətimizin başçısına istinadla qeyd olunub ki, Azərbaycan həm regional, həm də qlobal məsələlərdə öz mövqeyini həmişə nümayiş etdirib. Qoşulmama Hərəkatının Sədri kimi biz ədalətsizliyə qarşı, beynəlxalq hüququn müdafiəsi üçün mübarizəmizi davam etdirəcəyik.

"Biz Azərbaycanın Qoşulmama Hərəkatına Sədr seçilməsi zamanı üzvlərin yekdil həmrəyliyini gördük. Ölkəmizin təşkilata sədrlik müddətinin uzadılması həm də üzv dövlətlər tərəfindən Azərbaycana dəstəyin göstəricisidir", - deyə məqalələrdə Prezident İlham Əliyevin çıxışına istinadla vurğulanıb.

# Azərbaycanın xarici işlər naziri İordaniya Senatının Sədri ilə görüşüb

İyulun 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığı Senatının Sədri Faysal Al-Fayez ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Senatın sədrini səmimiyyətlə salamlayıb və onun Qoşulmama Hərəkatı (QH) Parlament Şəbəkəsinin Bakı Konfransında şəxsən iştirakının həm tədbirin işinə, həm də ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib. Nazir Azərbaycanın İordaniya ilə ikitərəfli və çoxtərəfli platformalarda, o cümlədən İƏT və QH çərçivəsində əməkdaşlığını məmnunluqla vurğulayıb.

Gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyi və bu münasibətlə tədbirlərin təşkilinin əhəmiyyəti səsləndirilib.

Senatın sədri Faysal Al-Fayez Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduqlarını və bu xüsusda ikitərəfli səfərlərin intensivləşməsinin əhəmiyyət kəsb etdiyini bildirib. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində fəal rolunu, irəli sürülən təşəbbüslərin təqdirəlayiq olduğunu qeyd edib. Sədr hazırda dünyada cərəyan edən bir sıra narahatlıq doğuran hadisələr fonunda Qoşulmama Hərəkatının dünya müstəvisində rolunun artırılmasına ehtiyacın olduğunu vurğulayıb.

Görüşdə həmçinin regional vəziyyət, habelə qlobal əhəmiyyət kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Nazir Ceyhun Bayramov İraq Parlamentinin sədr müavini ilə görüşüb

İyulun 1-də xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İraq Respublikası Nümayəndələr Şurasının (Parlament) sədr müavini Şaxvan Abdullah Əhmədin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan ilə İraq arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə edib və ölkələrimizin bütün sahələrdə əməkdaşlığı genişləndirmək əzmində olduğunu vurğulayıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanın İraq ilə əlaqələrin inkişafına önəm verdiyini qeyd edib. İki ölkə arasında münasibətlərin tarixi, mədəni və dini bağlar üzərində inkişaf etdiyini vurğulayaraq, həm ikitərəfli, həm də çoxtərəfli çərçivələrdə əməkdaşlığın həyata keçirildiyini qeyd edib. İraqın hər zaman beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına göstərdiyi dəstək minnətdarlıqla qeyd edilib.

İkitərəfli münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin önəmini qeyd edən nazir Ceyhun Bayramov İraq parlamentini təmsil edən yüksəksəviyyəli nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimizin parlamentləri arasında və ümumilikdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən İraq parlamentinin sədr müavini Şaxvan Abdullah Əhməd ölkələrimiz arasında mövcud olan müsbət əlaqələri qeyd edərək, Azərbaycanın İraqa göstərdiyi dəstəyi, o cümlədən Azərbaycan tərəfindən göstərilən humanitar yardımı məmnunluqla qeyd edib. Ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin inkişafının hər iki ölkənin marağına uyğun olduğu və parlamentlərarası dostluq qruplarının bu inkişafa töhfə verdiyi qeyd edilib.

Tərəflər həmçinin ikitərəfli əlaqələrin inkişaf etdirilməsi perspektivləri, o cümlədən iqtisadi, humanitar, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycan Çexiya ilə əlaqələrin inkişafına önəm verir

İyulun 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Çex Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Milan Sedlaçeki qəbul edib.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Milan Sedlaçekin etimadnaməsinin surətini qəbul edib və səfiri təyinatı münasibətilə təbrik edib.

Azərbaycanın Çexiya ilə əlaqələrin inkişafına önəm verdiyini qeyd edən nazir ölkələrimiz arasında yüksək siyasi dialoqun və qarşılıqlı anlaşmanın mövcud olduğunu söyləyib. Çex Respublikasının Azərbaycanın strateji tərəfdaşlıq münasibətləri qurduğu Avropa İttifaqının 9 üzv ölkəsindən biri olduğu vurğulanıb.

Səfir Milan Sedlaçek təbriklərə görə nazirə təşəkkürünü ifadə edib. O, öncəki təyinatlarında yaxın bölgədə çalışmaq təcrübəsinin olduğunu bildirib. Səfir ikitərəfli əlaqələrin inkişafı üçün böyük potensialın mövcudluğunu və bu potensialdan əlaqələrin inkişafı naminə istifadə olunması üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

Tərəflər iki ölkə arasında siyasi məsləhətləşmələrin davam etdirilməsinin əhəmiyyətini qeyd ediblər, habelə bir sıra sahələrdə, o cümlədən iqtisadi, nəqliyyat, energetika, humanitar istiqamətlər üzrə əlaqələrin perspektivləri imkanları üzrə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov yeni səfirə bölgədə münaqişə sonrası mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistan ilə münasibətlərin normallaşması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, ölkəmizin beynəlxalq hüququn prinsiplərinə ciddi riayət olunması əsasında bölgədə sülhün və sabitliyin təmin edilməsinə yanaşmasına dair məlumat verib.

Nazir Çex Respublikasının yeni təyin edilmiş səfirinə ölkəmizdəki diplomatik fəaliyyəti müddətində müvafiq dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib və ona uğurlar arzulayıb.

# Bakıda ABŞ-ın Müstəqillik Günü qeyd edilib







İyulun 1-də ABŞ-ın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 246-cı ildönümü ilə əlaqədar tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger ölkəsinin müstəqillik tarixindən danışıb. O xatırladıb ki, 1776-cı il iyulun 4-də ABŞ-ın müstəqillik bəyannaməsinin imzalandığı gündür.

Diplomat bildirib ki, son 30 ildə ölkələrimiz arasındakı əlaqələrdə böyük irəliləyiş baş verib. Vurğulayıb ki, bu tədbir ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümündə keçirilir və iki ölkə arasındakı əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək.

Maliyyə naziri Samir Şərifov tədbirdə çıxış edərək ABŞ xalqını və hökumətini Azərbaycan hökuməti adından təbrik edib. O, bu il Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd edildiyini bildirib.

Azərbaycan və ABŞ arasındakı əlaqələrdən danışan nazir bu əlaqələrin hər iki dövlətin maraqları və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri çərçivəsində bir çox sahələrdə, xüsusilə energetika və qlobal terrorizmlə mübarizə sahələrində olduqca fəal inkişaf etdiyini qeyd edib.

"Son zamanlar Azərbaycan ilə ABŞ arasında yüksək səviyyədə təmaslarda canlanma müşahidə olunmaqdadır. ABŞ-ın dövlət katibinin müavininin və köməkçisinin ölkəmizə səfərləri, Azərbaycan Prezidentinin köməkçisinin isə ABŞ-a səfəri, keçirilən görüşlər iki ölkə arasında münasibətlərin yeni müstəvidə inkişafının göstəricisidir", - deyə S.Şərifov diqqətə çatdırıb.

O vurğulayıb ki, bu ilin payızında Vaşinqtonda Azərbaycan-ABŞ İqtisadi Əməkdaşlıq Komissiyasının beşinci iclası keçiriləcək. Azərbaycan artıq bu iclasa hazırlıq işlərinə başlayıb.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin ölkəmizdəki səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "Burdan min atlı keçdi" tamaşası Akademik Milli Dram Teatrının səhnəsində



İyunun 30-da Yeni Azərbaycan Partiyasının(YAP) və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Akademik Milli Dram Teatrında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş yazıçı-dramaturq Hidayətin "Burdan min atlı keçdi" pyesi əsasında tamaşa təqdim olunub.

AZƏRTAC xəbər verir ki, tamaşanı YAP-ın rəhbərliyi, İdarə Heyətinin, Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının, paytaxtın rayon təşkilatlarının nümayəndələri, Milli Məclisin deputatları, dövlət və hökumət nümayəndələri, partiyanın fəalları izləyiblər.

Alqışlarla qarşılanan tamaşada İrəvan Teatrının yaradıcı kollektivinin hər biri oynadıqları obrazların səhnə həllini yüksək peşəkarlıqla təqdim ediblər. Ümummilli Lider Heydər Əliyevin obrazını Əməkdar mədəniyyət işçisi İftixar Piriyev canlandırıb.

Tamaşada tarixən Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın taleyindən, Qarabağ hadisələrinin yenicə başladığı dövrdə ermənilərin xalqımıza qarşı törətdiyi etnik təmizləmə siyasətindən, eləcə də Azərbaycan Prezidentinin əzmi nəticəsində həmin siyasəti iflasa uğradan tarixi Qələbəyə gedən yolun prioritetlərindən bəhs edilir. Əsrlərlə Qərbi Azərbaycanda bədxahlarımızın mənfur əməllərinə sinə gərən şəxsiyyətlərin gərgin mübarizəsi, o cümlədən Ümummilli Lider Heydər Əliyevin yorulmaz və dönməz fəaliyyəti tamaşa boyu işıqlandırılır. Ümummilli Lider Heydər Əliyevin bədii obrazının simasında o böyük şəxsiyyətin Vətən, torpaq və xalq sevgisi, dövlətçilik prinsipləri təcəssüm etdirilir.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov və quruluşçu rəssamı Vahid Mürsəliyevdir.

# Xəzərin dayazlaşması ciddi ekoloji fəlakətdir

## İlham Əliyev Aşqabadda bu qlobal problemin həlli istiqamətində xüsusi ekspert qrupunun yaradılmasının vacibliyini bəyan etdi

Əlverişli coğrafi mövqeyə, zəngin təbii sərvətlərə və enerji ehtiyatlarına malik Azərbaycan bu gün artıq qlobal əhəmiyyətli enerji layihələrinin müəllifi kimi tanınıb.

Ölkəmiz həmçinin coğrafi üstünlüyündən faydalanaraq Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat qovşağı və logistik mərkəzə çevrilib. Əlverişli geostrateji mövqeyimiz keçən 20 ilə yaxın dövr ərzində irimiqyaslı layihələrin həyata keçirilməsinə, nəqliyyat-kommunikasiya infrastrukturunun müasir tələblərə cavab verən səviyyəyə çatmasına imkan verib.

Xəzərin yaratdığı imkanlardan istifadə etməklə regionun əsas nəqliyyat və logistika mərkəzlərindən biri kimi Azərbaycanın ərazisindən keçən "Şərq-Qərb" nəqliyyat dəhlizi Avrasiyanı birləşdirən ən qısa nəqliyyat marşrutudur. Bununla yanaşı, ölkəmiz Çin-Qazaxıstan sərhədindən Avropa arasında yükdaşımalarda mühüm əhəmiyyətə malikdir. Bu marşrut xətti yükdaşımaların vaxtına, həmçinin çəkilən xərclərə qənaət etməyə imkan yaradır.

### Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Xəzərdə qarşılıqlı fəaliyyətə böyük əhəmiyyət verir. Bununla bağlı imzalanan bütün sazişlərdə, konvensiyalarda Azərbaycanın təşəbbükarlığı deyilənlərin bariz təcəssümüdür. İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında da bu məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Toplantıda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın mövcud imkanları və potensialından söz açaraq qeyd edib ki, Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri olan ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizlərinin inkişafında mühüm rol oynayır, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun səmərəli istifadəsinə səy göstərir. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

Faktlar və rəqəmlər təsdiq edir ki, "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları üzrə Azərbaycan ərazisindən keçən yükdaşımalar hər il artır. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsi isə imkanları daha da genişləndirib. Yeni limanın istifadəyə verilməsi Xəzərdə nəqliyyat-logistika infrastrukturunun inkişafına Azərbaycanın daha bir mühüm töhfəsi olub. Hazırda limandan keçən tranzit yüklərinin həcminin getdikcə artması da müşahidə olunur.

Qeyd edək ki, Rusiya və Ukrayna istiqamətində hərəkətin məhdudlaşdırılması səbəbindən Azərbaycan üzərindən yükdaşımaların həcmi artıb. Bu ilin təkcə 4 ayında TRACECA-nın Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 15 milyon 124,6 min ton, yük dövriyyəsi isə 3 milyard 671,9 milyon ton/km olub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 11,02 və 13,85 faiz artım deməkdir.

### Dənizin səviyyəsinin enməsi ən narahatedici problem olaraq qalır

Prezident İlham Əliyev Xəzəryanı dövlətlərin qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verdiyini söyləyərək qeyd edib ki, bu prosesdə dənizin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Çoxillik iş nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən edib. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq.

Son illərdə Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası da möhkəmlənir. Prezidentin söylədiyi kimi, qarşılıqlı maraq doğuran mühüm sahələr üzrə sazişlər imzalanıb və qüvvəyə minib. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində işə başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək.

Bundan əlavə, dənizin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanıb. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İƏT çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

İlham Əliyev həmçinin Xəzəryanı ölkələrin qarşılıqlı fəaliyyətini də dəyərləndirərək vurğulayıb ki, əməkdaşlığın əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir: "Xəzər dənizi bizim regionun xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir".

Prezident Xəzərin ekoloji probleminə də toxunaraq bu məsələdə Azərbaycanın sahilyanı dövlətlərin narahatlığına şərik olduğunu diqqətə çatdırıb. Ümumiyyətlə, Azərbaycan bütün dövrlərdə dənizin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlı olub. Çünki Xəzərin dayazlaşması son dövrlər ən narahatedici problem olaraq qalır. Bu qlobal problemin həlli istiqamətində xüsusi ekspert qrupunun yaradılması və həlli yolları ilə bağlı təkliflərin hazırlanması başlıca şərtlərdən biridir. Çünki ekoloji fəlakətin səbəblərinin aşkar edilməməsi ciddi fəsadlar verə bilər.

Qeyd edək ki, 2005-ci ildən Xəzərin səviyyəsində davamlı enmə müşahidə olunur. Ötən ilin məlumatına əsasən, dənizin səviyyəsi 2005-ci illə müqayisədə 1,19 metr aşağı düşüb. Ən çox enmə isə 2021-ci ildə qeydə alınıb - 30 santimetr. Ekspertlər hesab edirlər ki, bu proses təxminən 2050-60-cı illərə qədər 1-2 metr düşmə ilə davam edəcək.

Təbii ki, səviyyənin aşağı düşməsi fonunda dəniz ekosistemi, biomüxtəlifliyi üçün risklər yaranır. Buna dünyada gedən iqlim dəyişmələri və qlobal istiləşmənin, eyni zamanda antropagen amillərin təsir etdiyi də qeyd olunur. Bu səbəbdən də İlham Əliyev Aşqabad toplantısında məsələnin ciddiliyinə diqqət çəkərək xüsusi ekspert qruplarının yaradılmasının prioritet məsələ olduğunu hər kəsin diqqətinə çatdırıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Qazaxıstan həmkarlar ittifaqları arasında əməkdaşlığın möhkəmləndirilməsi məsələsi müzakirə olunub



İyulun 1-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə səfərdə olan Qazaxıstan həmkarlar ittifaqlarının nümayəndələri ilə görüşüb.

AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərindən, həmçinin iki ölkənin müvafiq qurumları arasında mövcud olan əlaqələrdən, əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və perspektivlərdən danışılıb.

Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətindən söz açan AHİK-in sədri bildirib ki, ölkəmizdə ən böyük ictimai təşkilat olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynayır, dövlətin bütün çağırışlarına, o cümlədən sosialyönümlü təkliflərinə adekvat cavab verir.

Əlavə edilib ki, bu gün həmkarlar ittifaqları Azərbaycanda əmək prosesinə cəlb olunmuş vətəndaşlarımızın hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü iş aparırlar.

Səmimi qəbula görə təşəkkür edən "Qazaxıstan Respublikası Həmkarlar İttifaqları Federasiyası ROP Aktivlərinin İdarə Edilməsi Direktorluğu" qurumunun baş direktorunun müavini Kayrat Aybosnov ölkəsinin həmkarlar ittifaqlarının gördüyü işlər haqqında ətraflı məlumat verib. O, Azərbaycan və Qazaxıstanın həmkarlar ittifaqları arasında münasibətlərin davamlı şəkildə inkişaf etdiyini, qarşılıqlı səfərlər təşkil olunduğunu, təcrübə və fikir mübadilələrinin aparıldığını deyib. Bildirilib ki, bu əlaqələrin daha da inkişafı üçün gələcəkdə də səylə çalışılacaq. Qazaxıstandakı sanatoriya-kurort mərkəzlərinin hazırkı vəziyyətindən bəhs edən K.Aybosnov Azərbaycan həmkarlar ittifaqlarına məxsus sanatoriya və istirahət evlərinə baş çəkdiklərini, orada yaradılmış şəraitlə tanış olduqlarını və bəyəndiklərini bildirib. Qonaq əlavə edib ki, bu sahədə Azərbaycanın təcrübəsi onlar üçün çox önəmlidir.

Görüşdə həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Gəncədə "Regionlarda uronefroloji xidmətin təkmilləşdirilməsi"nə dair müzakirələr aparılıb





Gəncə Şəhər Birləşmiş Xəstəxanasında "Regionlarda uronefroloji xidmətin təkmilləşdirilməsi"nə dair tədbir keçirilib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Tibbi fəaliyyətin təşkili departamentinin Multidisiplinar tibbi xidmətin təşkili şöbəsinin təşkilatçılığı ilə reallaşan tədbirin keçirilməsində məqsəd regionlarda uronefroloji xidmətin mövcud vəziyyətinin qiymətləndirilməsi, keyfiyyətin yüksəldilməsi və əhaliyə əlçatan tibbi xidmətlərin təmin edilməsidir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində qonaqlar əvvəlcə Abbas Səhhət adına Xəstəxanada olublar. Orada hemodializ şöbəsinin fəaliyyəti ilə tanışlıq olub, nefroloji və uroloji xəstələrə göstərilən tibbi xidmətin ümumi dəyərləndirilməsi aparılıb. O cümlədən ağır tematik xəstələrə baxış keçirilib, onların vəziyyəti müzakirə olunub.

Sonra Gəncə Şəhər Birləşmiş Xəstəxananın nəzdində olan stasionar tibb müəssisələrində və Gəncə TƏB üzrə ətraf regionlarda fəaliyyət göstərən (Daşkəsən, Göygöl, Samux, Goranboy, Şəmkir) uroloq və nefroloqların iştirakı ilə "Regionlarda Uronefroloji xidmətin təkmilləşdirilməsi" mövzusunda iclas keçirilib.

Tibbi fəaliyyətin təşkili departamentinin Multidisiplinar tibbi xidmətin təşkili şöbəsinin müdiri Vüsal Yusifov iclası açaraq müzakirə olunacaq məsələlər barədə iştirakçılara ətraflı məlumat verib.

Sonra Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının direktoru Fariz Babayev məruzə ilə çıxış edib, respublikada nefroloji xidmətin mövcud vəziyyəti barədə danışıb.

Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının baş həkimi Nicat Kərimov isə çıxışında uroloji və nefroloji patologiyaları olan xəstələrə ümumi yanaşmadan söz açıb.

Mərkəzi Neftçilər Xəstəxanasının Hemodializ şöbəsinin müdiri Mirhaşim Cəlalov isə hemodializ yardımının təşkilindən bəhs edib.

HB Güvən Klinikasının uşaq nefroloqu Zaur Əhmədov aktual mövzulardan olan hematuriyalı və proteinuriyalı uşaqlara yanaşma mövzusunda danışıb.

Respublika Endokrinoloji Mərkəzin həkim endokrinoloqu Samirə Xəlilova çıxış edərək xroniki böyrək xəstəliyində şəkərli diabetin aşkar olunmasından, müayinə və müalicə yollarından söz açıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Komandoların döyüş hazırlığına xüsusi diqqət yetirilir

Bu ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) bölmələrində təlim-məşqləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, praktiki məşqlərdə komandolar maneələri yüksək peşəkarlıqla dəf edərək kəşfiyyat cığırının açılması və şərti düşmənin məhv edilməsi tapşırıqlarını yerinə yetirirlər.

Komandoların fərdi bacarıqlarının, eləcə də atəş və taktiki hazırlığının daha da yüksəldilməsi məqsədilə keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqlar uğurla icra olunur.



# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Şamaxı şəhərində vətəndaşlarla görüşüb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, görüşdən əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Vətəndaş qəbulunda Qobustan, Şamaxı, Ağsu və İsmayıllı rayonlarının sakinləri iştirak ediblər. Qəbul zamanı vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

Qeyd edək ki, nazir Rəşad Nəbiyevin Şamaxı şəhərində vətəndaşlarla görüşü mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin iyul ayı üzrə şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən keçirilib.

***

İyulun 1-də İsmayıllıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın iştirakı ilə Heydər Əliyev Mərkəzində təşkil olunan qəbulda Ağsu və İsmayıllı rayonlarından olan sakinlərin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbuldan öncə komitə sədri Bahar Muradova və rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov İsmayıllı şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə çiçəklər qoyublar.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Vətəndaşlar əsasən əlilliyi olan uşaqların müalicəsi, boşanmaların yaratdığı problemlər, uşaq hüquqlarının müdafiəsi, alimentin ödənilməsi və sair barədə müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə həll olunub. Araşdırılmağa ehtiyac olan bir sıra müraciətlər isə qeydiyyata götürülüb, tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan bəzi müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

***

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, iyulun 1-də komitənin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Qobustan Dövlət Aqrar İnkişaf Mərkəzində Qobustan və Şamaxı rayonlarından olan vətəndaşları qəbul edib.

DGK sədri Səfər Mehdiyev qəbuldan öncə Qobustan şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Qobustan və Şamaxı rayonları sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı komitə sədri hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, bəzi müraciətlərin isə araşdırılması üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

***AZƏRTAC***

# Tanınmış jurnalist Ənvər Məşədiyevin 80 illiyi qeyd olunub



"Onun əmək kitabçasına yalnız bir redaksiyanın - "Bakı" və "Baku" axşam qəzetlərinin adı yazılıb. O, 1971-ci ildə bu redaksiyada məktub qeydiyyatçısı kimi işə qəbul edilib. Görkəmli jurnalist, mətbuat təşkilatçısı, "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və redaktoru Nəsir İmanquliyevin xeyir-duası ilə əmək fəaliyyətinə başlayan Ənvər Məşədiyev illər keçdikcə vəzifə pillələrində addım-addım irəliləyib - müxbir, şöbə müdiri, baş redaktorun müavini olub.

Ənvər Məşədiyev 20 ilə yaxın redaksiyanın ən ağır və çox böyük məsuliyyət tələb edən məktublar şöbəsinə rəhbərlik edib. O vaxtlar redaksiyaya ildə 20-25 min oxucu məktubu daxil olurdu. Bu qədər məktubu oxumaq, onları qeydə almaq, cavablandırmaq və ya hansısa dövlət qurumuna göndərmək heç də asan məsələ deyildi. Onun "Bakı" qəzetinin səhifələrində "Felyeton", "Satirik qələmlə", "Qəribə əhvalatlar", "Bir məktubun izi ilə", "Şəhər mövzusunda", "Jurnalistin düşüncələri", "Elm adamları", "Rəy və təkliflər" və başqa rubrikalarda dərc olunan yazıları böyük oxucu rəğbəti qazanıb.

Yubilyar jurnalistin qələminin məhsulu olan "Yaddaşımın işığında", "Ömür də bir yoldur", "Elmimizin üç zirvəsi", "Tale" kitabları ayrı-ayrı tanınmış alim və ziyalıların həyatı barədədir. "Bakı, axşamın xeyir!" kitabı isə onun bir qəzetçi kimi yetişməsində çox böyük zəhməti olan görkəmli jurnalist Nəsir İmanquliyevin ustad jurnalistika məktəbinin ənənələrindən bəhs edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Mətbuat Şurasında tanınmış jurnalist Ənvər Məşədiyevin 80 illik yubileyinə həsr olunmuş tədbirdə həmkarlarının çıxışlarında səslənib.

"Bakı" qəzetinin redaktoru, Əməkdar jurnalist Ağa Hüseynov təcrübəli həmkarını öz peşəsinin vurğunu olan jurnalist, səmimi iş yoldaşı kimi xarakterizə edib, mehriban qonşuluq münasibətlərindən danışıb.

AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini, Əməkdar jurnalist Dağbəyi İsmayılov uzun illər bir yerdə çalışdığı həmkarı haqqında xoş sözlər deyib: "Ənvər "Bakı" qəzetinin ən sadiq əməkdaşlarından biri olub. Onun taleyinə ilk əmək fəaliyyətinə başladığı redaksiyadan pensiyaya çıxmaq nəsib olub. Təsadüfi deyil ki, hər dəfə onunla görüşəndə "Bakı" qəzeti, mətbuatımızın keçmiş ənənələri, gəncliyimizlə əlaqədar unudulmaz xatirələr yada düşür..."

Jurnalistlik fəaliyyətinə "Bakı" qəzetində başlayan, hazırda "Xalq qəzeti"ndə müxbir vəzifəsində çalışan İlqar Həsənov gənclərin hamisi kimi tanıdığı həmkarını belə səciyyələndirib: "O, daim gənclərin arasında olur, onların problemlərinin həllinə kömək edirdi. Redaksiyada bir növ cavanların "səlahiyyətli nümayəndəsi" idi. Nəsir müəllim də Ənvərin bu keyfiyyətlərini bilir və bir çox məsələlərin həllini ona tapşırırdı".

"Bakı" və "Baku" qəzetlərinin tarixini araşdıran tədqiqatçı-jurnalist Şərəf Cəlilli deyib: "Bu qəzetlər paytaxt həyatını ən müxtəlif rakurslardan işıqlandırmağa çalışırdı. Ənvər Məşədiyev, Nəsir müəllimin təbirincə desək, "mis kimi cingildəyən" yazıları ilə tanınıb. O, nə yazıbsa, obyektiv olub, həqiqəti yazıb".

Əməkdar jurnalist Zemfira Məhərrəmli öz həmkarını ədalətli və obyektiv qələm sahibi olmaqla yanaşı, həm də çox xeyirxah, hamıya can yandıran, mehriban və səmimi iş yoldaşı kimi xarakterizə edərək deyib: "Həyatda Ənvər müəllimdən heç kim inciməyib. O, jurnalistlik fəaliyyəti dövründə həmişə xeyirxah işlər görüb, öz yazıları ilə haqqı tapdananlara kömək edib".

Mərasimdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov, yazıçı-publisistlər Xeyrəddin Qoca, Əmir Pəhləvan, yubilyarın həmkarları Əlipənah Bayramov, Bəyalı Rzayev, Xanlar Məmmədov, Rauf Ağayev və başqaları "Tərəqqi" medallı, "Qızıl qələm" mükafatı laureatı olan yubilyarın yaradıcılıq və insani keyfiyyətlərindən danışaraq ona uzun ömür və möhkəm cansağlığı arzulayıblar.

Ənvər Məşədiyev çıxış edərək onun yubiley tədbirində iştirak edənlərə təşəkkür edib, xoş sözlərə görə onlara minnətdarlığını bildirib.

Tədbirdə yubilyara Azərbaycan Mətbuat Şurasının diplomu və hədiyyələr təqdim olunub.

# "Science Channel" telekanalında yayımlanan "Tərk edilmişlərin sirri" serialının növbəti buraxılışı Ağdam şəhərinə həsr olunub

*Əvvəli 1-ci səh.*

Jurnalist Cim Meyqs isə Ağdamın vaxtilə çox müasir şəhər olduğunu vurğulayır: "İstənilən qərbli küçələrdə gəzə, kafelərə baş çəkə və özünü evdəki kimi hiss edə bilərdi. Lakin bütün bunlar qısa müddətdə məhv oldu. Bura qorxunc yerdir, sanki qorxu filmlərindəki kadrlara bənzəyir. Yollar və küçələr kimsəsiz qalıb. Heç yerdə insan görünmür. Şəhərdə salamat qalmış yalnız bir bina var. İnsanlar digər bölgələrdəki münaqişələr haqqında eşitdikləri qədər bu münaqişə barədə eşitməyiblər".

Reportajda Ağdamdakı Çörək muzeyindən də bəhs olunur: "Başqa bir gözlənilməz tapıntı kimi bu dağıntının ortasında gözəl bir boyalı divar var. Bəlkə də bu, dağılmış şəhərin canlanmasından xəbər verir".

Azərbaycanlı jurnalist Emin İbrahimov Çörək muzeyinin divarındakı rəsmdə Azərbaycan mədəniyyətinin üç atributunun təsvir olunduğunu bildirir: "Qadın əlində Novruz bayramının rəmzlərindən olan məcməyi tutub. Aşığın əlində Azərbaycanın milli musiqi aləti olan saz var. Uşaqlı qadın isə kəlağayı adlanan örpək geyinib. Bunların üçü də UNESCO tərəfindən qorunur və bəşəriyyətin qeyri-maddi mədəni irsinin bir hissəsidir. Ağdam şəhərində salamat qalan yeganə bina 1870-ci illərdə tikilmiş köhnə məsciddir. Ermənilər, əslində, ondan müşahidə qülləsi, anbar və artilleriya atəşlərini istiqamətləndirmək üçün istifadə edirdilər".

Ermənistan-Azərbaycan münaqişəsinin tarixindən də söhbət açıldığı reportajda məlumat verilir ki, sovet dövründə Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub. Lakin həmin vaxt muxtar vilayətdə əhalinin əksər hissəsini təşkil edən ermənilər vilayətin Ermənistana birləşdirilməsi tələbi ilə çıxış etməyə başladılar. 1990-cı illərin əvvəllərində baş verən münaqişə nəticəsində Azərbaycan əraziləri həmin vaxt daha yaxşı silahlanmış Ermənistan ordusu tərəfindən işğal olundu. Minlərlə erməni silahlısı Ağdama girib şəhəri gülləbaran etdi.

"1993-cü ildə şəhərin 40 min əhalisi və bölgədəki yarım milyondan çox azərbaycanlı öz evlərini tərk etmək məcburiyyətində qaldı. 1994-cü ilə qədər Ermənistan Ağdam şəhəri də daxil olmaqla regionu zəbt etmişdi", - deyə kimya mühəndisi Caega Vays bildirir.

Məlumat verilir ki, 2020-ci ildə dünya koronavirusa qarşı mübarizə apardığı bir vaxtda bu bölgədə münaqişə yenidən alovlanmağa başladı. Müharibədə ən müasir hərbi texnika ilə silahlanan Azərbaycan Ordusu qələbə qazandı. Azərbaycan Ordusunun müasir dron texnologiyasından uğurla istifadə etməsi uğur əldə olunmasında mühüm rol oynadı.

C.Vays Qarabağ müharibəsinin dronların həlledici rol oynadığı ilk müharibə olduğunu qeyd edib.

Həmçinin reportajda bildirilir ki, müharibə nəticəsində 2020-ci ilin noyabrında Ağdam şəhəri işğaldan azad edildi. Lakin şəhər sakinləri üçün mübarizə hələ bitməyib. Silahlar susmuş ola bilər. Ancaq mülki insanlar üçün hələ də travmatik zamandır.

AzerGold

# Daşkəsəndə yerli sakinlərlə növbəti görüş keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Korporativ Sosial Məsuliyyət Komitəsinin (KSM) iştirakı ilə Daşkəsəndə yerli sakinlərlə görüş keçirilib.**



QSC-nin törəmə şirkəti "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("DDF" MMC) inzibati binasında təşkil edilmiş görüşdə komitənin sədri, "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin müavini Xəyyam Fərzəliyev çıxış edərək sosial sahədə görülən işlər və yeniliklər barədə geniş məlumat verib. Daşkəsən şəhəri, eləcə də ətraf kənd və qəsəbələrdə yaşayan əhalinin sosial ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə keçirilən tədbirdə şirkətin Daşkəsən dəmir filizi sahəsi üzrə fəaliyyətinin regionun sosial-iqtisadi inkişafındakı rolu haqqında bəhs edilib. Bildirilib ki, "DDF" MMC-də bu günədək 73 faizi Daşkəsən rayonunu təmsil edən 198 nəfər işlə təmin olunub. Həmçinin əlavə olunub ki, dəmir filizi sahəsinin fəaliyyəti aktiv fazaya keçdikdən sonra regionda yeni və daimi iş yerlərinin sayı daha da artırılacaq.

Daha sonra yerli əhali və icmalarla iş prioritetləri çərçivəsində icra edilməkdə olan layihələr haqqında məlumat verilib. Bildirilib ki, hasilat sahələrinin yaxınlığında yerləşən kəndlərin sakinləri mütəmadi olaraq ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq, məşğulluq, sahibkarlığın təşviqi və s. istiqamətlər üzrə icra edilən layihələrdən faydalanırlar. Bölgədə yaşayanların, xüsusilə də sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin qayğıkeşliklə əhatə olunmasına xidmət edən bu cür layihələr sosial xarakterli dövlət proqramlarına töhfə vermək məqsədi daşıyır.

Görüşdə rayonun Mədənçi və Yuxarı Daşkəsən qəsəbələrinə yeni su xəttinin çəkilişi ilə bağlı məlumat verilib. Qeyd edilib ki, yaxın günlərdə 340 abonentə mərkəzləşdirilmiş qaydada içməli suyun verilməsinə başlanılacaq. "AzerGold" QSC-nin dəstəyi ilə həyata keçirilməkdə olan layihənin məqsədi həmin yaşayış məntəqələrində əhalinin keyfiyyətli su ilə təminatının yaxşılaşdırılmasıdır.

Daha sonra kənd sakinlərinin müraciətləri dinlənilib, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılıb. Komitə sədri müraciətlərlə bağlı müvafiq addımların atılması, vətəndaşların qaldırdıqları məsələlərin araşdırılması və mövcud qanunvericilik çərçivəsində həll edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

QSC tərəfindən hədəf qruplarına yönəlmiş təşəbbüs və layihələr çərçivəsində kənd sakinləri ilə ənənəvi görüş və sorğuların vaxtaşırı təşkili davam edəcək.

# "AzerGold" QSC-nin istehsal və ixrac imkanları artırılır

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən 2022-ci ilin may ayında 5,1 min unsiya qızıl, 13,9 min unsiya gümüş, cari ilin ilk 5 ayında isə 20,3 min unsiya qızıl, 67,8 min unsiya gümüş hasilatı həyata keçirilib.**



Ötən ay ərzində 4,8 min unsiya qızıl, 11,4 min unsiya gümüş ixrac edilib. Yanvar-may aylarında isə ümumilikdə 17,3 min unsiya qızıl, 52,3 min unsiya gümüşün beynəlxalq birjalarda satışı nəticəsində ölkə iqtisadiyyatına 58,4 milyon manat dəyərində vəsait cəlb olunub. Bununla QSC-nin 2022-ci il üzrə hasilat və ixrac planlarına uyğun olaraq ilk 5 ay üzrə fəaliyyəti tam təmin edilib.

Cari ilin yanvar-may ayları ərzində əldə edilən hasilat və ixrac rəqəmlərinin ötən ilin müvafiq dövrü ilə müqayisədə müəyyən qədər planlı azalması Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin (ÇİRES) istehsalat xəttində həyata keçirilən optimizasiya işləri ilə əlaqədardır. Belə ki, mineral-xammal resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsivə dayanıqlı hasilatın təmin edilməsi məqsədilə cari il ərzində icra olunan yenidənqurma işləri çərçivəsində ÇİRES-də mövcud qırıcı və konveyer xətlərinin süxurkeçirmə qabiliyyəti artırılaraq müəssisənin istehsal imkanları yüksəldilib. Nəticədə əvvəlcə xırdalama sahəsində saatda 210 ton filiz emal edilirdisə, optimizasiya işlərindən sonra qeyd olunan həcmin 43 faiz artırılaraq saatda 300 tona çatdırılmasına nail olunub. Beləliklə, optimizasiya işləri hasilat və ixracatın cari ilin 3-cü rübündən etibarən artırılmasına və ötən ilin yekun göstəricilərindən daha artıq icra edilməsinə imkan yaradacaq.

Qeyd edək ki, hazırda mövcud topa aşındırma üsulu ilə işləyən emal zavoduna əlavə olaraq tranzit və sulfid filizlərinin emalı üçün çən aşındırma üsulu (Carbon in Leach - CIL) ilə fəaliyyət göstərəcək yeni emal zavodunun tikintisi də sürətlə davam etdirilir. 2022-ci ilin sonu-2023-cü ilin əvvəlində istismara veriləcək zavodda "Çovdar" yatağının sulfid mərhələsi üzrə hasil ediləcək filizlər, "Mərəh", "Ağyoxuş-2", "Tülallar" və onun cinah sahələrindən çıxarılacaq filiz süxurlarının emal edilməsi planlaşdırılır.

# Son 20 ilin rekord daşqınları baş verir

## Ölkədəki leysan yağışları, təbii fəlakətlər indi problem yaratsa da, faydası da var

**Bu il ölkədə yağıntıların bol olması çaylarda sululuğu da artırıb. Çaylarda suyun səviyyəsinin qalxması isə selə, daşqın hadisələrinə səbəb olur.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) məlumatına görə, bu ilin iyun ayında son 20 ilin rekord daşqınları müşahidə olunub. Əvvəlki illərdə daha az sel və daşqın hadisələri baş versə də, bu ilin iyun ayında əsasən şimal və qərb rayonlarında yağan intensiv leysan yağışları nəticəsində respublika çaylarında daha çox daşqın və sel hadisəsi qeydə alınıb. Belə hadisələrin artması dəyişən iqlim fonunda yağıntıların qeyri-bərabər paylanması ilə izah olunur.

Ümumilikdə Azərbaycan ərazisi dünyada daha çox sel müşahidə edilən zonalar sırasına daxil edilir. Respublika ərazisinin təxminən yarısını əhatə edən Böyük və Kiçik Qafqaz dağ sistemlərində sel hadisələrinin formalaşması daha intensiv baş verir. Ən çox sel Böyük Qafqazın cənub yamacında və Naxçıvan Muxtar Respublikasının yüksək dağlıq ərazilərində baş verir. Sellər çay suları olan və olmayan dərələrdə qəflətən yağan şiddətli yağışlar və ya temperaturun artması ilə qısa müddətdə əriyən qar suları hesabına yaranır. Ölkəmizdə yaranan sellərin isə 85-87 faizi yağış suları hesabına formalaşır.

### İyul ayında da qısamüddətli daşqın və sel hadisələri gözlənilir

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev qəzetimizə açıqlamasında deyib ki, iyun ayında ölkə ərazisinə yağan intensiv leysan yağışları nəticəsində Böyük və Kiçik Qafqazın bəzi çaylarından qısamüddətli daşqın və sel hadisəsi müşahidə olunub. Onun sözlərinə görə, ən təhlükəli daşqın hadisəsi Daşkəsən rayonu ərazisindən axan Gəncəçay-Alaxançallı və Goranboy rayonu ərazisindən axan Gorançay-Yuxarı Ağcakənd məntəqələrində qeydə alınıb.

Ümumiyyətlə, iyun ayında 18 daşqın və sel hadisəsi qeydə alınıb ki, bu da son 20 ildə ən yüksək göstəricidir.

Asif Verdiyev qeyd edir ki, Gürcüstan ərazisində Kür çayının hövzəsinə yağan intensiv yağışlar nəticəsində iyunun 26-27-də Kür çayının Tiflis məntəqəsində suyun səviyyəsi 2 metrə qədər artıb. Bu artım Azərbaycanda Kür çayının Ağstafa rayonunun ərazisində Qıraqkəsəmən məntəqəsində də iyunun 27-28-də özünü göstərib. Bu müddət ərzində Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsi 187 santimetr artıb və ən yüksək səviyyəyə çatıb.

Hidroloq bildirir ki, artıq iyunun 28-dən başlayaraq bu günə kimi Kür çayının Gürcüstan ərazisindən keçən hissəsində suyun səviyyəsində azalma müşahidə edilir. Həmin ərazidə iyunun 30-na kimi suyun səviyyəsi 154 santimetr, Azərbaycanda isə iyunun 29-dan başlayaraq 30-na kimi suyun səviyyəsi 85 sm azalıb.

Hidrologiya Mərkəzinin direktorunun sözlərinə görə, ötən ay müşahidə edilən qeyri-sabit hava şəraiti iyun üçün o qədər də xas deyil: "Əvvəlki illərdə bu qədər sel, daşqın hadisəsi qeydə alınmırdı. Artıq yaz-yay gursululuq dövrü başa çatıb, hazırda çaylarda müşahidə olunan daşqın və sel hadisələri yağan yağışlarla əlaqəlidir, yəni yağış daşqınlarıdır".

Asif Verdiyev vurğulayır ki, iyul ayında da Böyük və Kiçik Qafqazın bəzi çaylarından qısamüddətli daşqın və sel hadisələrinin müşahidə olunacağı istisna edilmir.

### İqlimdə baş verən dəyişmələr dünya su ehtiyatlarına təsir göstərir

AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun Qurunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri, coğrafiya elmləri doktoru, professor Rza Mahmudov qəzetimizə açıqlamasında bildirir ki, bu gün təbiətdə iki əsas problem var: bunlar bir-biri ilə bağlı olan iqlim dəyişmələri və su təminatı problemləridir. Alim qeyd edir ki, iqlimdə baş verən hər hansı dəyişmələr dünya su ehtiyatlarına ciddi təsir göstərir. XX əsrin sonlarında qeyd edilmişdi ki, XXI əsrin əvvəllərində dövlətlər xarici siyasətlərində su problemini əsas gündəliyə salacaqlar. Bu, indi, doğrudan da, baş verir.

Rza Mahmudov deyir ki, çayların il ərzində müxtəlif rejimləri olur. Daşqın rejimli çayların qidalanmasında 60-70 faiz yağış suları, gursulu rejimdə isə 60-70 faiz qar suları iştirak edir: "Mart-aprel aylarında çaylarımızın quruması ilə bağlı həyəcan təbili çalındı. Xüsusən Kür çayının aşağı axınında problemin böyük olduğu deyilirdi, amma bu, təkcə Kür çayına deyil, bütün çaylara, göllərə aid məsələdir".

Professor bildirir ki, Azərbaycanda, xüsusən Bakı və Abşeronda may və iyun ayında digər ölkələrə nisbətən havanın temperaturu normadan aşağı olub. Bununla belə, çaylarda baş verən daşqın, gursululuq, sel hadisələri birbaşa iqlimin təsiridir. Bizim çaylarda daşqın bir rejimdir, hər il olmalıdır, təbii prosesdir. Amma bir il yağıntı az düşə, qar örtüyü az ola bilər, həmin il azsulu dövr olur. Müəyyən illərdə, hətta Mingəçevir su anbarı layihə həcmində doldurula bilmir. Daşqın və sel hadisələrinin həm səth, həm də yeraltı su ehtiyatlarının formalaşmasında müstəsna rolu oldu. Bu gün Avropada, xüsusən Almaniya, İtaliya, İspaniyada quraqlıqdır, çaylarda suyun səviyəsi kəskin şəkildə aşağı düşür, böyük həyəcan təbili çalınır.

### Daşqınlar su anbarlarımızın dolmasına səbəb olur

Şöbə müdiri qeyd edir ki, Azərbaycan az su təminatlı ölkələr sırasına daxildir, belə olan halda isə atmosfer yağıntılarının normadan çox olmasına sevinməliyik: "Təbii ki, daşqın, sel hadisələrinin qarşısının alınması üçün tədbirlər görülməlidir. Amma həmin sular eyni zamanda su anbarlarımızın dolmasına səbəb olur. Bu il çoxsulu illər sırasındadır. Yağıntılar olmasaydı, məhsuldarlıq aşağı düşəcək, meşə zolaqlarımızın su ilə qidalanması zəifləyəcək, təbii meşə yanğınları artacaqdı".

Rza Mahmudov vurğulayır ki, bunlar hamısı təbiətdə baş verən proseslərin bir-birini tamamlayan kökləridir. Kür çayının aşağı axınında suyun səviyyəsinin artması yaxşı haldır. 1969-cu ildə Qıraqkəsəmən məntəqəsindən saniyədə 2714 kubmetr su keçirdisə, quraq illərdə bu göstərici 40-50 kubmetr aşağı düşür. Baş verən daşqın, sel hadisələri çayların məcrasından çıxmasına, səviyyəsinin artması ilə məcranın yuyulması təbii fəsadlara səbəb olur. Amma quraqlıq hadisəsini bununla müqayisə etmək mümkün deyil.

Professor deyir ki, ölkə ərazisinin 20-25 faizi sel təhlükəli ərazilərdir. Onun sözlərinə görə, normal halda selə ən çox məruz qalan ərazilər Şəki-Zaqatala, Naxçıvan, Böyük Qafqazın cənub-şərq yamacı, Kiçik Qafqazın bəzi çaylarıdır. Sel ilin istənilən vaxtında, hətta quru çay dərəsində intensiv qar əriməsindən və intensiv yağışlardan yarana bilər. Bu, hər il o qədər təhlükə törətmir. Seldən mühafizə üçün bəndlər tikilir, mühafizə qurğuları qoyulur, xəbərdarlıq olunur.

Rza Mahmudov gursululuq nəticəsində su anbarlarının dolmasına, səth və yeraltı suların formalaşmasına görə ən azı bu il su problemi ilə üzləşməyəcəyimizi deyir. Su problemi, iqlim dəyişmələri bəşəriyyətin yaranmasının, mövcudluğun əsasını təşkil edir. Bəşəriyyətin gələcəyi də bu iki problemin həllindən asılıdır.

Təhlillər göstərir ki, sel, daşqın, subasma hadisələri Azərbaycan iqtisadiyyatına zərər yetirən təbii fəlakətlərdəndir. Azərbaycan əhalisinin təqribən 1 milyon nəfəri sel təhlükəli rayonlarda yaşayır, 18 inzibati rayon ərazisində yerləşən 200-dən artıq yaşayış məntəqəsi, 300 km uzunluğa malik dəmir yolları, 1000 km-dən çox respublika əhəmiyyətli şose yolları, körpü və qurğular, kənd təsərrüfatı obyektləri mütəmadi olaraq sel təhlükəsinə məruz qalır, dağılır, yararsız hala düşür.

Subasmalar əsasən Kür və Araz çaylarının aşağı axarında gursululuq dövründə baş versə də, iqlim dəyişiklikləri ilə əlaqədar mövsümə xas olmayan yağışların intensivliyi nəticəsində belə hadisələrin vaxtı da yerini dəyişir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azercell

## abunəçilərinin nəzərinə!

2 avqust 2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Gigamax" və "Gigamax+" adlı internet paketlərində müvafiq olaraq 60 GB və 80 GB istifadə həcmi təqdim ediləcək. Həmin paketlər çərçivəsində təqdim edilən həcm bitdikdən sonra istifadə müddətinin sonunadək 256 kb/s sürət həddində limitsiz həcmdə əlavə ödəniş etmədən istifadə etmək mümkün olacaq.

2 avqust 2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Gigamax pro" internet paketinə yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixə kimi qoşulan abunəçilər cari abunəliyi ləğv edilənə qədər standart qaydalara əsasən tarif paketindən ümumi əsaslarla istifadəyə davam edəcəklər.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, müvafiq paketlərin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com),** həmçinin Müştəri xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

**"Dənizçi Təmir-Tikinti" MMC-nin balansında olan yüksəkmərtəbəli binalar üçün elektrik mallarının satın alınması məqsədilə**

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 iyul 2022-ci il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

**respublika ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin satın alınması ilə bağlı**

***açıq tender elan edir***

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:
Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1200,0 (bir min iki yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.06.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.06.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.06.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **26 iyul 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **03 avqust 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **04 avqust 2022-ci il saat 15:00-da** Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# DOST RİM fərdi məlumat və informasiya sistemləri ilə bağlı fəaliyyət üzrə lisenziya alıb

## Lisenziya mərkəzə bir sıra yeni üstünlük və imkanlar qazandırıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən fərdi məlumatların, informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyət növü üzrə lisenziya alıb.

Təqdim olunmuş zəruri sənədlərin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən qanunvericiliyə uyğunluğu müəyyən edilərək lisenziyanın verilməsi təmin olunub. Lisenziya müddətsiz təqdim edilib və onun əldə edilməsi DOST RİM-ə bir sıra üstünlük və imkanlar qazandırıb.




Bununla mərkəz sosial sahədə rəqəmsal həllərin geniş tətbiqi ilə qanunvericiliyə uyğun olaraq informasiya sistemləri və ehtiyatlarının formalaşdırılmasını və inkişafını təmin edəcək, bu sahədə xidmətləri həyata keçirəcək. Habelə "Fərdi məlumatlar haqqında" qanuna uyğun olaraq fərdi məlumatların toplanılması və işlənməsini təmin edəcək.

DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində informasiya texnologiyaları siyasətinin müəyyənləşdirilməsi, informasiya-kommunikasiya məsələlərinin vahid şəkildə idarə olunması, habelə qurumlar arasında informasiya bazaları ilə qarşılıqlı inteqrasiyanın həyata keçirilməsini təmin edir. Mərkəz həmçinin nazirlik üzrə e-xidmətlərin təşkili və dayanıqlılığının təmin edilməsi, informasiya sistemlərinin dəstəklənməsi və inkişaf etdirilməsi, İT sahəsində idarəetmənin təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət göstərir.

# Avropa "hibridləşir"

## 2035-ci ildən sonra benzin və dizel yanacaqlı avtomobillərin satışı qadağan edilə bilər

**Avropa Parlamenti 2035-ci ilə qədər Avropada yeni benzin və dizel yanacaqlı mühərrikli avtomobillərin satışının qadağan edilməsi təklifini dəstəkləyib.**

Qəbul edilən qətnamə hələ məsləhət xarakteri daşıyır və formal olaraq məcburi deyil. Lakin belə qətnamələr göstərir ki, bir çox Avropa dövlətlərinin hakimiyyət orqanları yaxın onilliklərdə benzin və dizellə işləyən avtomobillərdən imtina etməyi hədəfləyirlər. Artıq "Ford", "Volvo" və "Volkswagen" kimi bir sıra böyük avtomobil konsernləri bu qərarı açıq şəkildə dəstəkləyiblər.

### Yeni sistemə keçidin müddəti

Son məlumata görə, Avropa İttifaqı Şurası da 2035-ci ildən etibarən benzin və dizellə işləyən avtomobillərin mərhələli şəkildə dayandırılması təşəbbüsü ilə razılaşıb. Qərar həmin ildə qüvvəyə minəcək, bundan sonra Aİ ölkələrində belə mühərrikli yeni minik avtomobilləri və yüngül kommersiya avtomobilləri almaq mümkün olmayacaq.

Bu qərarın qəbulu ilə bağlı danışıqların 16 saatdan çox aparıldığı bildirilir. Nəticədə Aİ-nin 27 ölkəsinin ətraf mühit nazirləri yanacaqla işləyən avtomobillərdən mərhələli şəkildə imtina etməyə çağırıblar.

Beləliklə, avropalı qanunvericilər avtomobil sənayesinin mədən yanacaqlarından imtina planını dəstəkləyirlər. Bu o deməkdir ki, Avropa Parlamentinin elektromobillərə keçid planını təsdiqləməsi, necə deyərlər, texniki məsələdir. Bu həm də o deməkdir ki, Avropa av-




tomobil sənayesi 10 ildən bir qədər artıq müddətdə elektrik enerjisi ilə işləyən avtomobillərin istehsalına keçməli olacaq. Avropa Komissiyasının vitse-prezidenti Frans Timmerman uzun və qızğın mübahisələrdən sonra kompromis əldə etmiş nazirlərə nikbinliklə deyib: "Mən tam əminəm ki, Avropa avtomobil sənayesi bunu edə biləcək".

### Xüsusi iqlim fondunun yaradılması nəzərdə tutulur

Avropa ölkələri həmçinin Aİ-nin karbon tullantılarına kvota satışı sisteminə və qiymətlərə nəzarət mexanizmini gücləndirmək barədə razılığa gəliblər. Aydındır ki, istilik və avtomobil nəqliyyatı üçün yanacaqla bağlı yeni karbon bazarının yaradılması bir il gecikəcək. Elektrik mühərrikli avtomobillərə keçiddə əhalinin ən həssas təbəqələrinə kömək etmək üçün xüsusi iqlim fondunun yaradılması nəzərdə tutulur.

Fransanın enerji keçid naziri Anyes Pannyer-Runaşerin dediyinə əsasən, bu saziş sayəsində Avropa iqlim problemlərinin həllində və texnologiyaların inkişafında liderlik edir. Amma onlar hər bir dövlət, hər bir region və hər bir vətəndaş üçün ədalətli keçidə zəmanət verirlər.

### Avropa Komissiyası 72 milyardlıq fond təklif edib

Kompromis əldə etmək üçün Almaniya həmçinin avtomobil emissiyaları haqqında qanuna 2035-ci ildən sonra yalnız karbonsuz yanacaqla işləyən daxili yanma mühərrikləri olan avtomobillərin qeydiyyatına icazə verən məcburi olmayan düzəliş təklif edib.

Ekologiya nazirləri həmçinin karbon bazarı islahatının əsas parametrlərini razılaşdırıblar ki, bu da 2030-cu ilə qədər emissiyaların 2005-ci il səviyyəsi ilə müqayisədə 61 faiz azaldılmasını nəzərdə tutur. Onlar spekulyasiyaları azaltmaq üçün çox böyük olan qiymət artımlarının qarşısının alınması mexanizmini gücləndirmək, həmçinin bazara 75 milyon karbon icazəsi buraxmaq istəyirlər.

İclasda, nəhayət, Sosial İqlim Fondunun həcmi müəyyən edilib. Avropa Komissiyası 72 milyardlıq fond təklif edib, lakin nazirlər həmin məbləği 59 milyard avroya endiriblər.

Maraqlıdır ki, müzakirələrdə "ekoloji cəhətdən təmiz olmayan" mühərriklərə malik işlənmiş avtomobillərin satışına qadağa müddəti məsələsi də daxil edilsə də, indiyədək bu məsələ ilə bağlı heç bir qərar verilməyib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4194
Sifariş 1804
Qiyməti 40 qəpik